AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

12 oktyabr 2016-cı il № 65-68 (9071) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### GƏMİÇİLİYİN TÜRKİYƏ RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİNİN HESABATI DİNLƏNİLİB

*Sentyabrın 30-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin rəhbərliyi ilə keçirilən yığıncaqda Gəmiçiliyin Türkiyə Respublikasındakı (İstanbul) nümayəndəliyinin cari ildə gördüyü işlər barədə hesabatı dinlənilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

Səh. 2

### DƏNİZÇİLİK DÜNYANIN AYRILMAZ HİSSƏSİDİR

*Beynəlxalq Dəniz Təşkilatı Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olub, beynəlxalq dəniz nəqliyyatının təhlükəsizliyi, mühafizəsi və dəniz mühitinin qorunmasını həyata keçirən beynəlxalq hökumətlərarası təşkilatdır. Beynəlxalq Dəniz Təşkilatı 1948-ci ildə Cenevrədə Birləşmiş Millətlər Təşkilatının beynəlxalq konfransında "Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiya"nın qəbul edilməsi ilə təsis edilmişdir və 1958-ci ildə «Hökumətlərarası dəniz məsləhətləşmə təşkilatı» (IMCO) adı ilə fəaliyyətə başlamışdır.*

Səh. 3

### İQTİSADİ FƏAL ƏHALİNİN SAYI 4 MİLYON 970 MİN NƏFƏRDƏN ÇOX OLUB




*Cari ilin sentyabrın 1-nə olan ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4 milyon 970,7 min nəfər olub, onlardan 4 milyon 724,6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib.*

Dövlət Statistika Komitəsindən bildirilib ki, cari il avqustun 1-nə olan məlumata görə isə muzdla işləyənlərin sayı 1 milyon 521,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 888,8 min nəfər, qeyri-dövlət sektorunda isə 632,3 min nəfər təşkil edib.

Səh. 4

### "XƏZƏR-2016" BEYNƏLXALQ KOMPLEKS TƏLİMDƏ İŞTİRAK EDİBLƏR

*Sentyabrın 21-22-də Rusiya Federasiyasının Həştərxan vilayətində Xəzəryanı ölkələr – Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstanın fövqəladə hallar üzrə məsul qurumlarının iştirakı ilə "Xəzər-2016" beynəlxalq kompleks təlim keçirilib.*

Səh. 5

### AĞ ŞƏHƏR ƏRAZİSİNDƏ METRO STANSİYASI TİKİLƏCƏK

***Bakı Ağ Şəhər ərazisində metro stansiyası tikiləcək.***

Prezident İlham Əliyev tərəfindən 2011-ci ildə təsdiqlənən Bakı Metropoliteninin Perspektiv İnkişaf Planına əsasən Metropolitenin mövcud Yaşıl xəttinin ("Şah İsmayıl Xətai" – "Dərnəgül" stansiyalarını birləşdirən) genişlənməsi gözlənilir.

Səh. 7

### "AVRO-2020"NİN DÖRD OYUNUNA EV SAHİBLİYİ EDƏCƏK BAKININ LOQOSU TƏQDİM OLUNUB

*Sentyabrın 30-da Bakı Olimpiya Stadionunda futbol üzrə 2020-ci ildə təşkil olunacaq Avropa çempionatına ev sahibliyi edəcək 13 şəhərdən biri olan Bakının bu yarışla əlaqədar hazırlanan loqosunun təqdimat mərasimi keçirilib.*

Səh. 8

## Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında 2016-cı il avqustun 7-də Bakı şəhərində imzalanmış Niyyət Protokolu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Niyyət Protokolunun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Niyyət Protokolunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İran İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 oktyabr 2016-cı il.***

…Biz indi sənaye parklarında, digər sahələrdə, metallurgiya sahəsində bir çox böyük sənaye layihələrini icra edirik və bu istehsal olunacaq məhsulların demək olar ki, hamısı ixracyönümlüdür. Ona görə, biz nəqliyyat imkanlarımıza da baxmalıyıq və indidən planlaşdırmalıyıq ki, ixraca yönələcək məhsulları necə daşıyacağıq. Bizdə onları daşımaq üçün imkanlar varmı? Kifayət qədər infrastruktur varmı? Vaqonlar, sisternlər, quru yük infrastrukturu varmı? Ona biz indidən baxmalıyıq. Biz nəqliyyat sektoruna - dəmir yoluna, hava və dəniz nəqliyyatına böyük sərmayə qoymuşuq. İndi Bakıda böyük gəmiqayırma zavodu artıq böyük gəmilər istehsal edir. Ancaq buna bir daha kompleks şəklində baxmalıyıq. İxrac olunacaq məhsulun, o cümlədən indi ixracı kəskin artacaq kənd təsərrüfatı məhsullarının həcmi dəqiq proqnozlaşdırılmalıdır.

Bu il təkcə pambıq istehsalı üç dəfə artacaq. Gələn il bu ilə nisbətən on dəfə, ondan sonra iyirmi dəfə artacaq. Biz bunu nə ilə daşıyacağıq? Bizdə bunu daşımaq üçün kifayət qədər infrastruktur varmı? Bizim hazır məhsulumuz olacaq, ancaq daşıya bilməyəcəyik. Ona görə, bunlar indidən planlaşdırılmalıdır və dövlət investisiya proqramında nəzərdə tutulmalıdır ki, sonra biz gözlənilməz vəziyyətlə üzləşməyək.

Beləliklə, sənaye sahəsində icrada olan və planlaşdırılan layihələr bizə böyük xeyir gətirəcək. Minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq və biz qeyri-neft ixracımızı artıracağıq. Əsas məsələ bundan ibarətdir. Bu gün neftin qiyməti 50 dollardır. Keçən ay 40 dollar idi. İlin əvvəlində 30 dollara düşmüşdü. Yəni, biz buna baxıb öz gələcəyimizi planlaşdıra bilmərik. Ona görə, neft ixracının azaldılmasını biz qeyri-neft ixracı ilə əvəzləməliyik. Bu sahədə sənaye və kənd təsərrüfatı əsas istiqamətlərdir.

…Bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son üç ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## "QIZILGÜL BAĞI" BAKI SAKİNLƏRİNİN İSTİFADƏSİNƏ VERİLDİ

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair imzaladığı müvafiq proqramlara və tədbirlər planına uyğun olaraq qədim və zəngin tarixə malik Bakı şəhərinin abadlaşdırılması, müasir simasının möhtəşəmliyi, sosial-iqtisadi yüksəlişi sahəsində irimiqyaslı layihələr həyata keçirilir. Son illər görülən nəhəng işlər nəticəsində müasir meqapolisə, bağlar, parklar, bulvarlar şəhərinə çevrilən Bakı artıq dünyanın ən gözəl şəhərləri ilə müqayisə edilir.***

Bakının gözəlliyinə gözəllik qatacaq yeni istirahət məkanlarından biri də oktyabrın 6-da Nəsimi rayonu ərazisində istifadəyə verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva yeni salınan "Qızılgül bağı" parkında yaradılan şəraitlə tanış oldular.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına və xanımına yeni salınan parkda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, yeni park "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin uzun müddət istifadə olunmayan Radio Mərkəzinin 1906-cı ildə inşa edilən binasının ərazisində salınıb. 6300 kvadratmetrlik istirahət parkı dünyanın məşhur şirkətinin dizaynı əsasında layihələndirilib. Təmir işləri yüksək keyfiyyətlə, müasir tələblər səviyyəsində və qısa vaxtda həyata keçirilib. Əvvəllər Radio Mərkəzinin binası kimi fəaliyyət göstərən tikili də yenidən qurulub. İndi bura kafe kimi fəaliyyət göstərəcək. Təmir zamanı qədim binanın tarixi element və fiqurları yüksək keyfiyyətlə bərpa edilib. Bu isə binanın xarici görünüşünün qorunub saxlanılmasına, eyni zamanda, müasir memarlıqla uzlaşdırılmasına geniş imkanlar yaradıb. İstirahət məkanı orijinal elementlər və formalarla daha da zənginləşdirilib, bu da parka xüsusi yaraşıq verir.

Yeni salınan parkda Bakı sakinlərinin, şəhərin qonaqlarının mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Park yaradılarkən balacalar da yaddan çıxmayıb. Onlar üçün xüsusi istirahət guşəsi, müxtəlif attraksionlar qurulub. Bu istirahət məkanında yaradılan meydança və fəvvarə ərazinin gözəlliyini daha da artırır.

Parkda aparılan abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən geniş yaşıllaşdırma işləri də diqqəti cəlb edir. Bu işlər görülərkən ərazidə mövcud olan çoxillik ağaclar saxlanılıb. Bundan başqa, parkda 200-dən çox müxtəlif növ yeni ağaclar, gül və bəzək kolları əkilib.

Bu cür yeni müasir istirahət ocağının yaradılması Prezident İlham Əliyevin tapşırığı ilə Bakıda parkların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması işinə bir töhfədir. Bu cür layihələrin həyata keçirilməsi həm də ümumilikdə paytaxtımızın simasının gündən-günə gözəlləşməsini bütün dünyaya nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.










DƏNİZ
12 oktyabr 2016-cı il № 65-68 (9071)



## GƏMİÇİLİYİN TÜRKİYƏ RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİNİN HESABATI DİNLƏNİLİB

***Sentyabrın 30-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevin rəhbərliyi ilə keçirilən yığıncaqda Gəmiçiliyin Türkiyə Respublikasındakı (İstanbul) nümayəndəliyinin cari ildə gördüyü işlər barədə hesabatı dinlənilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***

Gəmiçiliyin İstanbuldakı nümayəndəsi Təməl Motorcu Xəzərdənkənarda üzən donanmamızın səmərəli istismarı, gəmilərin təmiri, yaranan problemlərin qısa müddətdə aradan qaldırılması, heyət üzvləri ilə bağlı məsələlərin vaxtında həlli üçün zəruri saydığı tədbirləri yığıncaq iştirakçılarının diqqətinə təqdim edib.

Hesabat yığıncağında nümayəndəliyin fəaliyyətini daha da yaxşılaşdırmaq üçün səslənən təkliflər barədə ətraflı fikir mübadiləsi aparılıb, qarşıda duran vəzifələr bir daha müzakirə olunub. Cəmiyyətin sədri Rauf Vəliyev yekun çıxışında xüsusi ilə qeyd edib ki, uzun fasilədən sonra gəmilərimizin müstəqil Azərbaycanımızın üçrəngli bayrağı altında xarici sularda üzməsi hər birimizdə qanuni iftixar hissi doğurur. Bununla belə, quru yük gəmilərimizin Xəzərdənkənar sularda möhkəmlənməsi üçün hələ çox iş görülməlidir. Bu baxımdan Gəmiçiliyin İstanbuldakı nümayəndəliyinin də fəaliyyəti böyük önəm kəsb edir. Sədr əmin olduğunu bildirib ki, nümayəndəliyin işçiləri çiyninə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, quru yük gəmilərimizin xarici sularda uğurlu səfərlərinə, donanmamızın gəlirlə işləməsinə öz sanballı töhfələrini verəcəklər.

***"DƏNİZ"***

## Dəhliz vasitəsilə daşınmış yüklərin 14,6 faizini və ya 4855,5 min tonunu tranzit yüklər təşkil edib



***Bu ilin yanvar-avqust aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşınması 33237,9 min ton, yük dövriyyəsi isə 6420,1 milyon ton-kilometr olub.***

Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, yüklərin 21 min 297 tonu və ya 64,1 faizi avtomobil nəqliyyatı, 8950,2 min tonu və ya 26,9 faizi dəmir yolu nəqliyyatı, 2990,7 min tonu və ya 9 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Qeyd olunan dövrdə avtomobil nəqliyyatı ilə daşınmış yüklərin həcmi 2,7 faiz artıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 14,6 faizini və ya 4855,5 min tonunu tranzit yüklər təşkil edib.

Cari ilin yanvar-avqust aylarında dəhliz vasitəsilə 229,5 milyon sərnişin daşınıb, sərnişin dövriyyəsi 4596 milyon sərnişin-kilometr olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sərnişin daşınması 2,2 faiz, sərnişin dövriyyəsi isə 1,5 faiz artıb.

## Yeni şirkət yaradılıb

***"Azərbaycan Dəmir Yolları" QSC və Rusiyanın taxıl yüklərinin dəmir yolu ilə daşımaları üzrə nəhəng operatoru "Rusaqrotrans" QSC Rusiya, Azərbaycan, İran, Gürcüstan və Türkiyə arasında yük dövriyyəsində dəmir yolu daşımalarının payını artırmaq məqsədilə "AzRusTrans" QSC müştərək müəssisəsini yaradıb.***

Oktyabrın 10-da Bakıda yeni şirkət Azərbaycanın yükgöndərənlərinə və yük sahiblərinə təqdim olunub. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, müavinləri Vüsal Aslanov və İqbal Hüseynov şirkətin dəmir yollarının yük dövriyyəsinin artırılmasında məqsəd və vəzifələri barədə tədbir iştirakçılarına məlumat veriblər. Təqdimatda "Rusaqrotrans" QSC-nin Direktorlar şurasının üzvü Konstantin Zasov, "Rusaqrotrans" QSC-nin Baş direktoru Yuri Kim və direktorlar şurasının sədri Oleq Roqaçov da iştirak edib.

Yeni şirkətin rəhbəri Cavid Quliyev iştirakçılara şirkətin Rusiya, Azərbaycan, İran, Gürcüstan və Türkiyə arasında beynəlxalq daşımalarda olan üstünlüklərindən söz açıb.

Yeni birgə müəssisə fəaliyyəti sayəsində Azərbaycan Dəmir Yolları tərəfindən rekonstruksiya edilmiş nəqliyyat dəhlizləri, əsasən, Bakı-Tbilisi-Qars və "Şimal-Cənub" dəhlizləri Rusiya, Azərbaycan, İran, Gürcüstan və Türkiyə arasında dəmir yolu daşımalarının həcmini artırmağa imkan verəcək. Rusiya-İran, Rusiya-Gürcüstan və Rusiya-Türkiyə istiqamətində taxıl daşımaları daha perspektivli ola bilər.

Qeyd edək ki, "AzRusTrans" QSC Rusiya Federasiyasında və Azərbaycanda şəxsi qatar parkına sahib olan əsas operatorlardan biri olmağa can atan dəmir yol şirkətidir. "AzRusTrans" QSC müxtəlif yüklərin, o cümlədən taxıl və digər aqrar yüklərin, meşə materiallarının, mineral gübrələrin, inşaat, konteyner və maye yüklərinin daşınmasını təşkil edir. Şirkət Rusiya və Azərbaycan ərazisində limanlarda yükləmə - boşaltma da daxil olmaqla tranzit daşımalar sahəsində tam xidmət təqdim edir, çatdırma müddətlərini optimallaşdırır, vaqonların izlənməsini təşkil edir, məsləhət və gömrük xidmətləri göstərir, fitosanitar və baytar nəzarəti də daxil olmaqla lazımi sənədləri rəsmiləşdirir.

## YÜKDAŞIMALAR SAHƏSİNDƏ BİRGƏ LAYİHƏLƏRİN İŞLƏNMƏSİ ÜÇÜN İMKANLAR MÜZAKİRƏ EDİLİB

***Oktyabrın 10-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev İran İslam Respublikasının "Qadir dəniz nəqliyyatı holdinqi"nə daxil olan "Negin Kish International Onshore & Development Company" şirkətinin (NKCo) direktorlar şurasının sədri M.Moghadamifərd, şirkətin baş direktoru A.Mohağheğri və kommersiya üzrə meneceri S.Hairzadə ilə görüşüb.***



Sədr Rauf Vəliyev dəniz nəqliyyatının inkişafını daim diqqətdə saxlayan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən nəhəng layihələrdən söhbət açıb, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin son illərdə əldə etdiyi nailiyyətlər, donanmalarının texniki imkanları, daha müasir gəmilərlə zənginləşdirilməsi, nəqliyyat donanmasının Xəzərdənkənar fəaliyyətinin bərpası və genişləndirilməsi üçün atılan mühüm addımlar barədə qonaqlara ətraflı məlumat verib.

Qonaqlar təmsil etdikləri şirkətin çoxaspektli nəqliyyat xidmətləri göstərdiyini, neft və neft məhsullarının tranziti, sənaye layihələrinin işlənib hazırlanması, gəmiqayırma, neft emalı, neft kimya sahələri üçün avadanlıq və cihazların alınması və satılmasını və s. həyata keçirdiyini diqqətə çatdırıblar.

Görüşdə iki qonşu və dost ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafının gəmiçilik sahəsində də qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar yaratdığı bildirilib, dəniz nəqliyyatı, xüsusilə Xəzərdə və Xəzərdənkənar hövzələrdə yükdaşımalar sahəsində birgə layihələrin işlənməsi üçün böyük potensialın mövcudluğu vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

***"DƏNİZ"***

## ASTANADA TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNUN KOORDİNASİYA KOMİTƏSİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***Oktyabrın 7-də Astanada Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Koordinasiya Komitəsinin növbəti iclası keçirilib.***









Qazaxıstan Dəmir Yolunun təşkilatçılığı ilə keçirilən tədbirdə Koordinasiya Komitəsinə üzv ölkələrin dəniz və dəmir yolu nəqliyyat qurumlarının, yükaşırma müəssisələrinin rəhbərləri iştirak ediblər. Azərbaycanı tədbirdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev, Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC-nin baş direktoru Taleh Ziyadov və digər rəsmi şəxslər təmsil ediblər.

"Qazaxıstan Dəmir Yolu" SC-nin sədri Kanat Alpısbayevin sədrliyi ilə keçən iclasda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM) Koordinasiya Komitəsinin hüquqi şəxslər birliyinin yaradılması, TBNM Koordinasiya Komitəsinin təsis sazişinin imzalanması, TBNM Koordinasiya Komitəsinin hüquqi şəxslər birliyinin Nizamnaməsinin təsdiq edilməsi, TBNM Koordinasiya Komitəsinin hüquqi şəxslər birliyinin dövlət orqanlarında qeydiyyata alınması ilə bağlı maraqlarını təmsil etmək üçün səlahiyyətli təşkilatların seçilməsi məsələləri müzakirə olunub və müvafiq qərarlar qəbul olunub.

İclasda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tranzit və xarici ticarət yüklərinin cəlb edilməsinin, yüklərin daşınmasında tariflərin müəyyən edilməsi sahəsində razılaşdırılmış siyasətin həyata keçirilməsinin, nəqliyyat əlaqələrinin səmərəsinin yüksəldilməsinin, birgə inteqrasiya edilmiş logistik məhsulun istehsalı yolu ilə TMTM marşrutunun inkişaf etdirilməsinin və qarşılıqlı əlaqələndirmə işlərinin operativ təşkilinin əhəmiyyəti vurğulanıb.

İştirakçılar yeni üzvlərin qəbulu ilə bağlı məsələni də müzakirə ediblər. Polşanın PKP LHS dəmir yolu şirkəti yekdilliklə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Koordinasiya Komitəsinə üzv qəbul olunub.

İclasın sonunda TBNM Koordinasiya Komitəsinin təsis sazişi və digər sənədlər imzalanıb.

***"DƏNİZ"***

## Gəmiçilik sahəsində əməkdaşlıq perspektivləri yüksək dəyərləndirilib

***Sentyabrın 29-da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin birinci müavini Zamiq İsmayılovun rəhbərliyi ilə Yaxt klubda Polşa inkişaf nazirinin müavini Radoslav Dormagalski-Labentski və Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Marek Tsalka ilə görüş keçirilib.***



Görüşdə regionun lider dövləti olan Azərbaycanda hazırda qeyri-neft sənayesinin inkişafının iqtisadi siyasətin prioritetlərindən olduğu qonaqların diqqətinə çatdırılıb, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkənin tranzit potensialının gücləndirilməsi, dəniz nəqliyyatının inkişafı istiqamətində görülən mühüm işlər, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində aparılan köklü islahatlar, tərkibinə Polşa Respublikasında inşa olunan müxtəlif təyinatlı gəmilərin də daxil olduğu donanmalarının texniki imkanları, gəmi təmiri müəssisələri və sair barədə ətraflı məlumat verilib.

İki ölkə arasında əməkdaşlıq münasibətlərindən danışarkən Polşa inkişaf nazirinin müavini Radoslav Dormagalski-Labentski artıq genişlənən iqtisadi əlaqələr fonunda, o cümlədən gəmiçilik sahəsində də əməkdaşlıq perspektivlərini yüksək dəyərləndirib.

Görüşdə hər iki tərəfi maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"DƏNİZ"***

## POLŞA AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN DƏRİNLƏŞMƏSİNDƏ MARAQLIDIR

***Polşa həm şirkətlər, həm də hökumətlər səviyyəsində əməkdaşlıq əlaqələrinin dərinləşməsində maraqlıdır və iqtisadi münasibətlərin inkişafı baxımından Azərbaycan Polşa üçün vacib ölkədir.***

Sentyabrın 28-də Energetika Nazirliyində Polşa inkişaf nazirinin müavini Radoslav Domagalski-Labentskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Energetika nazirinin müavini Gülməmməd Cavadovun rəhbərliyi, nəqliyyat nazirinin müavini Musa Pənahov, müdafiə sənayesi nazirinin müavini Tofiq Rəfiyev, səhiyyə nazirinin müavini Elsevər Ağayev, Dövlət Dəniz Administrasiyasının rəis müavini Ehtiram Rəhimov, Beynəlxalq Dəniz Ticarət Limanı QSC-nin baş direktorunun müavini Vahid Əliyev və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin müəssisəsi "ACSC logistics" MMC-nin baş direktoru İlham Məmmədovun iştirakı ilə keçirilən görüşdə Azərbaycan-Polşa əməkdaşlığının gələcək inkişaf istiqamətləri müzakirə edilib.

Energetika nazirinin müavini Gülməmməd Cavadov Polşa şirkətlərinin fəaliyyəti üçün ölkəmizdə geniş imkanların olduğunu deyərək, əməkdaşlıq təkliflərinin dəyərləndirilməsinin əhəmiyyətini qeyd edib.

Polşa inkişaf nazirinin müavini Radoslav Domagalski-Labentski isə bildirib ki o, Polşa şirkətlərinin Azərbaycanda investisiya yatırmaqda maraqlı olduğu sahələrin və layihələrin çoxşaxəli olduğunu, cari ilin dekabrında keçiriləcək iqtisadi əməkdaşlıq üzrə Polşa–Azərbaycan Hökumətlərarası Komissiyanın 7-ci iclasına qədər irəli sürülən təkliflər üzrə razılaşmaların əldə olunmasının vacibliyini vurğulayıb.

Azərbaycan tərəfdən görüşdə iştirak edən hökumət nümayəndələri təmsil etdikləri sahələr üzrə sərmayə qoyuluşu üçün prioritet saydıqları istiqamətlər və layihələr barədə ətraflı məlumat verərək, bir sıra konkret təkliflər irəli sürüblər. Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərini həyata keçirməklə Azərbaycanın mühüm nəqliyyat qovşağına çevrildiyini qeyd edən nəqliyyat nazirinin müavini Musa Pənahov bildirib ki, yeni nəqliyyat sisteminin formalaşdırılması iki ölkə arasında da əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır. Nazir müavini Azərbaycanın tranzit potensialının gücləndirilməsi, Xəzər hövzəsində logistik mərkəzlərin yaradılması, dəmir yollarının yenidən qurulması kimi layihələrdə Polşa şirkətlərinin iştirakını mümkün hesab edib.

Polşa inkişaf nazirinin müavini səsləndirilən təklifləri yüksək qiymətləndirərək, yeni layihələrin həyata keçirilməsi ilə həm Azərbaycan, həm də Polşanın böyük mənfəət əldə edəcəyinə ümidlərini ifadə edib.

Görüşün yekununda Azərbaycanla Polşa arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyaya həmsədrlik edən qurum kimi Energetika Nazirliyi tərəfindən bu münasibətlərin daha da inkişafına lazımi dəstəyin veriləcəyi diqqətə çatdırılıb.

# DƏNİZÇİLİK DÜNYANIN AYRILMAZ HİSSƏSİDİR





Beynəlxalq Dəniz Təşkilatı Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olub, beynəlxalq dəniz nəqliyyatının təhlükəsizliyi, mühafizəsi və dəniz mühitinin qorunmasını həyata keçirən beynəlxalq hökumətlərarası təşkilatdır. Beynəlxalq Dəniz Təşkilatı 1948-ci ildə Cenevrədə Birləşmiş Millətlər Təşkilatının beynəlxalq konfransında "Beynəlxalq Dəniz Təşkilatı haqqında Konvensiya"nın qəbul edilməsi ilə təsis edilmişdir və 1958-ci ildə «Hökumətlərarası dəniz məsləhətləşmə təşkilatı» (IMCO) adı ilə fəaliyyətə başlamışdır. Sözügedən qurumun adı 1982-ci ildən Beynəlxalq Dəniz Təşkilatı adlanır. Təşkilata üzv dövlətlərin sayı hal-hazırda 171-dir. BDT-nin rəsmi məqsədi beynəlxalq dəniz gəmiçiliyinə aid istənilən texniki məsələlərdə hökumət tənzimlənməsini və praktika sahəsində hökumətlərin əməkdaşlığını təmin etmək, dənizdə təhlükəsizlik, gəmiçiliyin səmərəliliyi, dənizin gəmilər vasitəsilə çirklənməsinin qarşısının alınması və bu cür çirklənməyə qarşı mübarizə məsələlərində mümkün qədər praktiki baxımdan maksimal normaların hamılıqla qəbul edilməsini təşkil etmək və buna şərait yaratmaq, təşkilatın məqsədi ilə əlaqədar inzibati və hüquqi məsələləri nəzərdən keçirməkdir. Dəniz nəqliyyatının təhlükəsizliyi, dəniz və dəniz ətraf mühitinin mühafizəsinin əhəmiyyətinə ictimaiyyətin diqqətini yönəltmək və Beynəlxalq Dəniz Təşkilatının fəaliyyətinin mühüm aspektlərini vurğulamaq məqsədi ilə hər il sentyabr ayının sonuncu həftəsinin bir günü Beynəlxalq Dəniz Təşkilatı tərəfindən "Dünya Dənizçilik Günü" olaraq qeyd olunur. Hər il qeyd edilən "Dünya Dənizçilik Günü" üçün Beynəlxalq Dəniz Təşkilatının fəaliyyətinə il ərzində əhəmiyyətli dərəcədə təsir edən fərqli şüar seçilir. 2016-cı il "Dünya Dənizçilik Günü" üçün şüar "Dənizçilik dünyanın ayrılmaz hissəsidir" şüarı olub və həmin şüarın mövzusu dəniz nəqliyyatı və dünya ictimaiyyəti arasında mühüm bağlılığın vurğulanması, eləcə də dəniz nəqliyyatı sahəsində əsas tənzimləyici orqan olaraq Beynəlxalq Dəniz Təşkilatının fəaliyyəti ilə bağlı maarifləndirmə işlərinin artırılması üçün seçilmişdi.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən verilən məlumata görə, dünya ticarətinin həcminin 80%-i, dəyərinin isə 70%-i dəniz nəqliyyatı ilə daşımaların payına düşür. Dəniz nəqliyyatı beynəlxalq ticarət və dünya iqtisadiyyatı üçün yeganə səmərəli və davamlı çatdırılma mexanizmidir və dünyanın hər bir yerində insanlar gündəlik həyatları ilə bağlı ehtiyaclarını ödəmək məqsədi ilə zəruri məhsulların daşınması sahəsində dəniz nəqliyyatına etibar edirlər. Müasir dünyanın tələblərinə cavab verən məhsulların yüksək miqyasda ixracı və idxalı prosesini dəniz nəqliyyatı olmadan təsəvvür etmək çətindir. Hal-hazırda daşımaların hər növünü beynəlxalq səviyyədə həyata keçirən 50 mindən çox ticarət gəmisi mövcuddur. 150-dən çox dəniz dövlətində qeydiyyatda olan dünya dəniz donanması demək olar ki, hər bir millətdən olan milyondan artıq dənizçi ilə təmin olunmuşdur. Son 50 ildən artıq müddətdə Beynəlxalq Dəniz Təşkilatı tərəfindən dəniz təhlüksəziliyi, dəniz ətraf mühitinin mühafizəsi, hüquqi məslələlər və digər sahələri əhadə edən beynəlxalq qaydaların hərtərəfli mexanizmi hazırlamış və qəbul edilmişdir. Bu tənzimləyici mexanizm sayəsində dəniz nəqliyyatı artıq əhəmiyyətli dərəcədə təhlükəsiz və səmərəli bir sahəyə çevrilmişdir.

## DƏNİZ NƏQLİYYATI TİCARƏTİN VƏ QLOBALLAŞMANIN ƏSASINA ÇEVRİLİB



***Bu gün dünyanı gəmiçiliksiz təsəvvür etmək mümkün deyil. Dəniz nəqliyyatı ticarətin və qloballaşmanın əsasına çevrilib.***

BMT xəbər mərkəzi bildirir ki, BMT-nin baş katibi Pan Gi Mun bu fikirləri sentyabrın 29-da Beynəlxalq Dəniz Təşkilatının (İMO) qərargahında qeyd edilmiş Ümumdünya Dəniz Günü münasibətilə məktubunda ifadə edib.

Baş katibin məktubunda deyilir: "Gəmilərlə qida məhsulları, texnologiyalar, dava-dərman və digər vacib mallar göndərilir. Dünyada, xüsusən inkişaf etməkdə olan ölkələrdə əhalinin sayı durmadan artır, bununla əlaqədar ucuz başa gələn və səmərəli dəniz daşımaları iqtisadi artım və davamlı inkişaf üçün getdikcə daha çox əhəmiyyət kəsb edir".

Pan Gi Mun vurğulayıb ki, gəmiçilik sayəsində milyardlarla insan üçün iş yerləri, dolanışıq vasitələri təmin edilir. Onun sözlərinə görə, dəniz daşımaları bütün dünyada həyat səviyyəsinin sürətlə artmasında mühüm rol oynayıb. BMT-nin rəhbəri 2030-cu ilə qədər olan dövrdə davamlı inkişaf sahəsində gündəliyin reallaşdırılmasında gəmiçiliyin mühüm rolunu qeyd edib.

İMO-nun baş katibi Kitak Lima bildirib ki, müasir gəmilər mürəkkəb mütərəqqi texnoloji avadanlıqlarla təchiz olunub. Onun sözlərinə görə, daşınan yüklərin miqdarı artıb, gəmiçiliyin təhlükəsizlik səviyyəsi yüksəlib. Kitak Lima vurğulayıb ki, bu nailiyyətlər həmin sahədə çalışan milyonlarla dənizçinin əməyi sayəsində qazanılıb.

İMO başçısının sözlərinə görə, dəniz daşımaları hər kəsin pul kisəsinə bu və ya digər dərəcədə təsir göstərir. Dəniz daşımalarının daha aşağı məsrəfə başa gəldiyini qeyd edən İMO nümayəndəsi deyib: "Əgər hər hansı mal dəniz yolu ilə daşınırsa, həmin malın mağazadakı son satış qiymətinin nəqliyyata aid tərkib hissəsi cüzi olur".

Bu gün dənizlərdə ən müxtəlif yüklər daşıyan 50 minə qədər gəmi üzür. 150 ölkənin limanlarında qeydiyyata alınmış bu gəmilərin xidmət heyətinə praktiki olaraq bütün millətləri təmsil edən 1 milyondan çox dənizçi daxildir.

## Gəminin qəzaya uğraması nəticəsində 7 nəfər itkin düşüb



***İndoneziyanın Yava adası yaxınlığında sərnişin gəmisi qəzaya uğrayıb.***

"Sinxua" agentliyinə istinadən verdiyi xəbərə görə, hadisə nəticəsində 7 nəfər itkin düşüb.

Batan gəminin göyərtəsində onlarla insanın olduğu bildirilir. Qəza nəticəsində itkin düşənlərin olduğu bildirilsə də, xilas edilənlər və ölənlər haqqında məlumat verilmir. İnsidentin təfərrüatları müəyyənləşdirilir.

## Xəzəryanı ölkələr arasında ilk dəfə Azərbaycanda "Nərə cinsli balıq ehtiyatlarının istifadəsinin və dövriyyəsinin tənzimlənməsi Qaydaları" hazırlanıb



***Cənubi Afrikada keçirilmiş konfrans iştirakçıları 3 aydan sonra beynəlxalq ticarətin xüsusi nəzarət predmeti olacaq flora və faunanın yeni növlərini "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiyanın (CİTES Konvensiyası) siyahısına əlavə ediblər. Onlar, həmçinin bəzi vəhşi heyvanların populyasiyasının artmasını və ya azalmasını nəzərə alaraq ticarət rejimi sərtləşdiriblər, yaxud da yüngülləşdiriblər.***

BMT-nin saytı xəbər verir ki, Konvensiya iştirakçılarının 17-ci konfransında nadir bitki, heyvan və balıq növləri ilə bağlı beynəlxalq ticarətin tənzimlənməsinə dair 64 dövlətdən 62 təklif nəzərdən keçirilib. Təkliflərdən 51-i qəbul olunub, 5-i rədd edilib, 6-sı isə geri götürülüb. Sessiyada qərara alınıb ki, CİTES strombus və napoleon balıqlarının ticarətini tənzimləyəcək. Həmçinin ilanlar, Afrika vəhşi itləri və boz tutuquşuları CİTES-in siyahısına daxil edilib.

Sessiyada 170 ölkədən 3,5 min nümayəndə iştirak edib. Nümayəndələr qərara gəliblər ki, CİTES-in növbəti konfransı 2019-cu ildə Şri-Lankada keçiriləcək.

CİTES Konvensiyası 1975-ci ildə Vaşinqtonda qəbul edilib. Hazırda Konvensiyaya 176 dövlət qoşulub.

Xatırladaq ki, "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya Azərbaycan Respublikası tərəfindən 1998-ci ildə ratifikasiya olunub. 1999-cu ildə CİTES üzrə İnzibati Orqan kimi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilib. Ötən müddət ərzində İnzibati Orqan tərəfindən idxal və ixrac əməliyyatlarını tənzimləyən 110 icazə sertifikatı verilib. CİTES Katibliyi tərəfindən tələb olunan hesabatlar mütəmadi olaraq tərtib edilərək qarşı tərəfə çatdırılıb. CİTES Katibliyi ilə İnzibati Orqan arasında məlumat mübadiləsi təşkil edilib. Onun tövsiyəsi əsasında Xəzəryanı ölkələr arasında ilk dəfə Azərbaycanda "Nərə cinsli balıq ehtiyatlarının istifadəsinin və dövriyyəsinin tənzimlənməsi Qaydaları" hazırlanıb.

## AZƏRBAYCAN SAHİBKARLARI DƏNİZ MƏHSULLARI VƏ BALIQÇILIQ SƏRGİSİNƏ DƏVƏT OLUNURLAR

***Oktyabrın 27-29-da Koreya Respublikasının Busan şəhərində "XIV Busan Beynəlxalq Dəniz Məhsulları və Balıqçılıq" sərgisinin keçirilməsi nəzərdə tutulur. Azərbaycanda fəaliyyət göstərən sahibkarlar və iş adamları sərgidə iştiraka dəvət olunurlar.***

azpromo
Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) bildiriblər ki, sərgidə 30 ölkədən olan 400 şirkət nümayəndəsinin 500-dən çox məhsulu nümayiş etdirməsi planlaşdırılır.

Qeyd edək ki, sərgi 13 ildir mütəmadi olaraq keçirilir və Koreyanın dəniz məhsulları üzrə ən böyük ticarət sərgisidir. 2015-ci ildə keçirilmiş eyni adlı sərgi 26 ölkədən (ABŞ, Kanada, Böyük Britaniya, Niderland, Portuqaliya, Rumıniya, Rusiya, Argentina, Çin, Yaponiya, Hindistan və sair) olan 396 şirkət nümayəndəsini və 823 eksponenti əhatə edib.

## 11,8 MİLYON DOLLARA TANKER ALIB



***Dünyanın ən böyük enerji gəmilərinə sahib olan Türkiyənin "Karadeniz Holding"i Yunanıstanın "LL Energy" şirkətinin mülkiyyətindəki "M/T Nassau Energy" adlı xam neft daşıyan tankeri 11 milyon 800 min dollara alıb.***

"M/T Nassau Energy" 1998-ci ildə Yaponiyanın "Koyo Dockyard" tərsanəsində inşa edilib. Tankerin 247 metr uzunluğu, 42 metr eni var və 107 min 181 DWT xam neft daşıya bilir. Tanker gələn ay "Karadeniz Holding"ə təhvil veriləcək.

## "MÜSTƏQİL AZƏRBAYCANIN 25 İLİ SƏFİRLƏRİN GÖZÜ İLƏ" MƏQALƏLƏR TOPLUSU ÇAP EDİLİB

***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə" məqalələr toplusu çapdan çıxıb.***




Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyası ilə bağlı dəyərli fikirləri ilə başlayan toplunun ideya müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovdur.

"Müstəqil Azərbaycanın 25 ili" başlıqlı "Ön söz əvəzi" ilə oxucu auditoriyasına təqdim olunan bu topluda 49 dövlətin Azərbaycan Respublikasına akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin, həmçinin BMT, Avropa İttifaqı, TürkPA və digər beynəlxalq qurumların Bakıdakı nümayəndəliklərinin rəhbərlərinin təmsil etdikləri ölkələrin və qurumların ölkəmiz ilə əlaqələrinin 25 illik tarixinə, əldə olunan nəticələrin qiymətləndirilməsinə, münasibətlərin perspektivlərinə həsr edilən məqalələr toplusu Azərbaycan və ingilis dillərində təqdim olunub. Məqalələrdə Azərbaycanın xarici siyasəti, ikitərəfli münasibətlər geniş şəkildə əks olunub, keçilmiş yolun çətinlikləri, nailiyyətlər, həmçinin perspektivlər haqqında məlumat verilib.

Məqalələrin əksəriyyətinin ana xətti budur ki, mürəkkəb geosiyasi regionda yerləşməsinə və çətin inkişaf yolu keçməsinə baxmayaraq, bu gün Azərbaycan Respublikası dünya birliyinin müstəqil siyasi subyekti kimi balanslaşdırılmış, çoxvektorlu əməkdaşlıq, bərabərhüquqlu tərəfdaşlıq və milli maraqlara əsaslanan xarici siyasət həyata keçirir. Ulu öndər Heydər Əliyevin formalaşdırdığı və Prezident İlham Əliyevin yaradıcılıqla və uğurla davam etdirdiyi müstəqil dövlətçiliyimizin xarici siyasət konsepsiyası Azərbaycanın regionun lider dövlətinə, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından birinə çevrilməsinə imkan yaradıb. Artıq Azərbaycan istər regional və qlobal təhlükəsizliyin təmin edilməsində, istərsə də enerji təhlükəsizliyinə nail olunmasında etibarlı, sabit tərəfdaş kimi qəbul olunur.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinin tərtib etdiyi və ölkəmizin 25 illik müstəqillik tarixinə dəyərli töhfə olan bu toplu Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən nəşr edilib.

## AZƏRBAYCANDA RƏQƏMLİ TV YAYIMINA KEÇİLİR



***Noyabrın 1-dən etibarən Bakı və Abşeron yarımadasında yerüstü yayımlanan ümumölkə TV proqramlarının analoq yayımı, dekabrın 1-dən isə respublikanın digər bölgələrində yayımlanan TV proqramlarının yerüstü analoq yayımın dayandırılacaq.***

Azərbaycan Respublikası ərazisində yerüstü yayımlanan TV proqramlarının analoq TV qəbulediciləri ilə izlənilməsi üçün DVB-T standartına uyğun olan dekoderlərin ("Set-Top-Box"-ların) istifadəsi ilə bağlı maarifləndirmə tədbirlərinin aparılması teleradio yayımçılarına və digər müvafiq qurumlara, eyni zamanda, Azərbaycan Respublikasında fəaliyyət göstərən sahibkarlara DVB-T standartına uyğun olan dekoderlərin ("Set-Top-Box"ların) satışının təşkilinin təmin edilməsi tövsiyə edilir.

MTRŞ vətəndaşlara müraciət edərək bildirir ki, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının 2016-cı il tarixli 27 sentyabr tarixli müvafiq qərarına uyğun olaraq, 2016-cı il noyabrın 1-dən Bakı şəhəri və Abşeron yarımadasında analoq TV yayımı dayandırılacaq.

Növbəti mərhələdə – 2016-cı il dekabrın 1-dən digər bölgələrdə də analoq TV yayımının dayandırılması həyata keçiriləcək.

Televiziya tamaşaçılarından mövcud analoq TV qəbulediciləri vasitəsilə rəqəmli TV yayımının izlənməsi üçün tələb olunan zəruri avadanlığın - dekoderlərin ("Set-Top-Box"-ların) əldə olunması xahiş olunur.

# Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat infrastruktur layihələri BMT-nin Davamlı inkişaf məqsədlərinin icrasına töhfə verəcək

***Sentyabrın 22-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 71-ci sessiyasında iştirakı çərçivəsində BMT baş katibinin müavini və Dənizə çıxışı olmayan və inkişaf etməkdə olan kiçik ada dövlətləri üzrə xüsusi nümayəndə Gyan Çandra Açarya ilə görüşüb.***

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Elmar Məmmədyarov Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirildiyini qeyd edib, hazırda ölkəmizdə BMT-nin müəyyən etdiyi davamlı inkişaf gündəliyinin icrası, şaxələndirilmiş, rəqabətə davamlı, texnologiya və elm tutumlu iqtisadiyyatın inkişafı istiqamətində ardıcıl tədbirlərin icra olunduğu barədə məlumat verdi.

Bu xüsusda Azərbaycanın dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin Vyana Fəaliyyət proqramına xüsusi əhəmiyyət verdiyini qeyd edən nazir ölkəmizin yaxından iştirakı və dəstəyi ilə həyata keçirilən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin regional inkişafa və inteqrasiyaya xidmət etdiyini bildirib.

Gyan Açarya Azərbaycanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən irimiqyaslı nəqliyyat infrastruktur layihələrinin, xüsusilə dənizə çıxışı olmayan region ölkələrinin nəqliyyat imkanlarını artıracağını və BMT-nin Davamlı inkişaf məqsədlərinin icrasına əsaslı töhfə verəcəyini diqqətə çatdırıb. O, Azərbaycanın bu sahədə təcrübəsini nəzərə alaraq, ölkəmizi oktyabrın 13-14-də BMT müvafiq bölmələri ilə birlikdə Boliviyada keçiriləcək inkişaf etməkdə olan dənizə çıxışı olmayan ölkələrin davamlı nəqliyyat imkanlarına dair yüksək səviyyəli konfransda iştiraka dəvət edib.

Elmar Məmmədyarov Azərbaycanın davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi prosesində dövlət orqanlarının göstərdikləri xidmətlər, vergi və gömrük sistemində vahid pəncərə sisteminin yaradılması sahəsində öz təcrübəsini BMT-nin xətti ilə digər dənizə çıxışı olmayan ölkələrlə bölüşməyə hazır olduğunu deyib. Azərbaycanın BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2017-2019-cu illərdə üzvlüyünə seçildiyini qeyd edən Elmar Məmmədyarov BMT-nin bu mötəbər qurumuna Azərbaycanın yüksək səslə üzv seçilməsinin ölkəmizin beynəlxalq nüfuzunun və sosial-iqtisadi sahədə son onillikdə əldə etdiyi nailiyyətlərə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətin göstəricisi olduğunu vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğal olunmuş ərazilərimizdə törətdiyi vəhşiliklər, o cümlədən nəqliyyat infrastrukturlarının dağıdılması barədə məlumat verən Elmar Məmmədyarov Ermənistanın destruktiv və işğalçı siyasətinin regional əməkdaşlıq və inteqrasiyanın tam şəkildə inkişafına, regionda davamlı inkişaf məqsədlərinin həyata keçirilməsinə ciddi maneə olduğunu bildirib.

# ANLAŞMA MEMORANDUMU İMZALANIB

***Sentyabrın 29-da Bakıda keçirilən Azərbaycan-Bolqarıstan iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) ilə Bolqarıstanın Limanlar İnfrastrukturu Şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.***



Müqaviləni Bakı Limanının baş direktoru Taleh Ziyadov və Bolqarıstanın Limanlar İnfrastrukturu Şirkətinin baş direktoru Anguel Zabourtov imzalayıblar. Limandan bildirilib ki, memoranduma əsasən qeyd olunan qurumlar arasında əməkdaşlıq genişlənəcək və təcrübə mübadiləsi həyata keçiriləcək. Bununla yanaşı, memorandum liman idarəçiliyi, həm də liman heyətinin təlim və tədrisi sahələrində əməkdaşlıq və təcrübə mübadiləsini ehtiva edir.

Bolqarıstanın Limanlar İnfrastrukturu Şirkəti liman infrastrukturunun idarə edilməsi, tikintisi, bərpa edilməsi, liman akvatoriyaların və kanalların salınması, dövlət və mühüm strateji əhəmiyyətə malik olan limanların təhlükəsizliyinin təmin edir.

Qeyd edək ki, yeni Bakı Limanı Azərbaycanın tranzit imkanlarının reallaşdırılması baxımdan əhəmiyyətlidir və limanın tikintisinə böyük həcmdə investisiya yönəldilib. Yeni Bakı Limanı Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin vacib iştirakçısıdır və bu da öz növbəsində Bolqarıstan üçün Mərkəzi Asiyaya çıxış baxımından maraqlıdır.

Xatırladaq ki, 2015-ci ildə Bakı Limanı, Batumi Dəniz Limanı və Aktau Limanı arasında məqsədi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) üzrə Əlaqələndirmə Komitəsinin təsis edilməsi və Transxəzər Nəqliyyat Dəhlizi vasitəsilə əlavə yük axınlarını cəlb etməkdən ibarət olan üçtərəfli Anlaşma Memorandumu imzalanmışdır. Cari ilin yanvar ayında isə Bakıda keçirilmiş dördtərəfli görüşdə Ukrayna da Transxəzər marşrutuna qoşulub.

Həmçinin, Bakı Limanı son illərdə Antverpen, Panama, Aktau və Poti limanları ilə Anlaşma Memorandumu imzalayıb, Qətər və Sinqapur limanı ilə yaxın əməkdaşlığa cəlb olunub.

# Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Bakı Limanında olublar

***Oktyabrın 5-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə və komitə üzvləri Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər ediblər.***

Səfər çərçivəsində Bakı Limanının baş direktoru Taleh Ziyadov millət vəkillərinə yeni Bakı Limanının inkişaf konsepsiyası haqqında məlumat verib. O, yaradılan Ələt Azad Ticarət Zonasının Azərbaycanın qeyri-neft sektorunun inkişafına və regional əməkdaşlığa, ticarət dövriyyəsinin artmasına ciddi töhfə verəcəyini qeyd edib.

Daha sonra Milli Məclisin deputatları yeni Bakı Limanında tətbiq olunan beynəlxalq standartlara uyğun prosedurlar və liman əməliyyatları ilə tanış olublar. Bundan əlavə əcnəbi sürücülərin dincəlməsi üçün yaradılmış şərait, eləcə də Bakı Limanında fəaliyyəti göstərən bank, poçt, sığorta və digər xidmətlər haqqında onlara ətraflı məlumat verilib.





Milli Məclisin deputatı, akademik Z.Səmədzadə yeni Bakı Limanının ölkə başçısının elan etdiyi ciddi islahatlar proqramında mühüm yer tutduğunu qeyd edib. Onun sözlərinə görə, Ələtdə yeni Bakı Limanı və Azad Ticarət Zonasının yaradılması həm Azərbaycan, həm də regional inkişafa təsir edəcək.

"Yeni Bakı Limanı ətrafında nəqliyyat və logistika infrastrukturu qurulacaq, Ələt qəsəbəsinin sakinləri işlə təmin olunacaq, xidmət və logistika sahəsində çalışan mütəxəssislərə tələbat artacaq. Bütün bunlar Prezident İlham Əliyevin iqtisadi və sosial siyasətinin tam mahiyyətini əhatə edərək vətəndaşların sosial rifahına müsbət təsir göstərəcək və dünyada tanınan qlobal şirkətlərin ölkəmizə sərmayə qoymasına səbəb olacaq", - deyə Z.Səmədzadə vurğulayıb.



# "İpək Yolu İqtisadi Kəməri" ölkələrinin Logistika Əməkdaşlığı İttifaqı yaradılıb

***Çinin Sincan-Uyğur muxtar rayonunun inzibati mərkəzi olan Urumçi şəhərində "İpək Yolu İqtisadi Kəməri" ölkələrinin Logistika Əməkdaşlıq İttifaqı yaradılıb. Sinxua agentliyinin verdiyi xəbərə görə, 85 Çin və xarici liman, habelə logistika xidmətləri üzrə müəssisə qurumun üzvü olub.***

Təsis mərasimində ittifaqın üzvləri dəmir yolu, gömrük, keyfiyyət və karantin nəzarəti, habelə hüquqi sahədə transsərhəd logistika xidmətlərini təmin etmək üzrə əməkdaşlığı fəallaşdırmağa hazır olduqlarını bildiriblər. Məqsəd əmtəə dövriyyəsi və resursların qarşılıqlı artırılmasına yardım göstərməkdir.

Sincan-Uyğur muxtar rayonundakı "Luqan" beynəlxalq şirkətinin icraçı direktoru Syuy Yunsin Logistika Əməkdaşlıq İttifaqı sədri seçilib.

# Hindistandan göndərilən ilk sınaq konteynerləri Azərbaycandan keçməklə Rusiyaya yola salınıb

***Oktyabrın 7-də ilk dəfə "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə Hindistanın Banqalor şəhərindən Rusiyanın Vorsino stansiyasına test olaraq göndərilməsi planlaşdırılan, elektrik avadanlıqları və onlara ehtiyat hissələri ilə yüklənmiş 5 ədəd 40 futluq universal konteynerlərdən 3-ü, "ADY Express" şirkətinin Astara Yük Həyətində qəbul edilib, platformalara yükləndikdən sonra, Astara stansiyasından təyinatı üzrə yola salınıb.***

"ADY Express"dən bildirilib ki, konteynerlər Hindistanın Mumbay şəhərindən dəniz vasitəsilə İranın Bəndər Abbas Limanına, oradan dəmir yolu ilə Qəzvin stansiyasına, oradan da avtomobillərlə Azərbaycan Astarasına çatdırılaraq, Rusiyaya yola salınıb. Artıq demək olar ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin bütün iştirakçı ölkələri yükdaşımalar prosesinə qoşulublar.

Bir neçə gün öncə isə "ADY Express" "Cənub-Qərb" nəqliyyat dəhlizi ilə daha bir əməliyyat həyata keçirib. Belə ki, İran islam Respublikasından Avropaya göndərilən, mərmərlə yüklənən 10 ədəd 20 futluq konteynerlər, yük avtomobillərdən dəmir yolu platformalarına aşırılaraq, Astara dəmir yolu stansiyasından yola salınıb.

Xatırladaq ki, hələlik yüklər İrandan avtomobillərlə daxil olur, Astarada "ADY Express"ə məxsus Yük Həyətində vaqonlara aşırılaraq Astara dəmir yolu stansiyasından yola salınır.



Həmin yüklərin İrandan Azərbaycana yük avtomobilləri ilə daxil olması və sonradan Astarada vaqonlara yüklənməsi Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi Fərman və sonradan Nazirlər Kabinetinin bu fərmandan irəli gələn qaydaların təsdiq etməsi nəticəsində mümkün olub.

Həmin Fərmana uyğun olaraq, Azərbaycan ərazisindən, sonrakı nəqli dəmir yolları ilə edilməsi şərtilə, yükləri daşıyan xarici avtomobil nəqliyyatı vasitələri rüsum və yol vergisindən azad olunublar. Bu da öz növbəsində Azərbaycan ərazisindən yükdaşımaları ucuzlaşdırmaqla nəqliyyat dəhlizinə yüklərin cəlb olunması üçün əlverişli şərait yaradıb.

Astaraçay üzərində salınan dəmir yol körpüsünün tikintisi isə başa çatmaq üzrədir. İnşa edilən körpü və salınan yeni dəmir yolu Azərbaycanın Astara Stansiyası ilə İran-Astara stansiyasını birləşdiriləcək ki, bu da öz növbəsində "Şimal-Cənub" və "Cənub-Qərb" marşrutlarında yük dövriyyəsinin intensivləşməsinə böyük təkan verəcək.

# "Hansı rakursdan baxsaq Azərbaycan tranzit və aparıcı mərkəzi məntəqədir"



***Azərbaycanda yaradılmış azad sənaye zonaları avropalı investorlar üçün cəlbedicidir. Hansı rakursdan baxsaq Azərbaycan tranzit və aparıcı mərkəzi məntəqədir. Ona görə də Azərbaycanın bu üstünlükdən necə istifadə etdiyini görmək olduqca vacibdir.***

Bunu İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Campaolo Kutilo "Caspian Energy"ya müsahibəsində deyib.

"Bizim şirkətlərimiz bu işə öz töhfələrini verməkdə maraqlıdırlar. Bu, öz növbəsində onların Azərbaycana gəlmək və lazımi əlaqələri nizamlamaq qabiliyyətlərindən asılı olacaq. Amma biz hökumət olaraq, sözsüz ki, bu prosesə və İtaliya şirkətlərinin Sumqayıt kimi sənaye zonalarına cəlb edilməsinə yardım etməyə hazırıq. Bizim həmçinin neft-kimya sektoruna da marağımız var. Bir sıra nəhəng İtaliya şirkətləri mühüm neft-kimya layihələri çərçivəsində Azərbaycanda fəaliyyət göstərirlər", - deyə Campaolo Kutilo vurğulayıb.

# Bakı Limanı ilə tanış olub



***Bakıda səfərdə olan Polşa inkişaf nazirinin müavini Radoslav Domagalski-Labentskinin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 30-da Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər edib.***

Qonaqlar Azad Ticarət Zonası da daxil olmaqla müasir liman kompleksinin inşa prosesi ilə yaxından tanış olublar. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ölkənin tranzit potensialının tam inkişafına yönəlmiş strategiyanın istiqamətləri barədə də məlumat verilərək bildirilib ki, Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsi olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ümumilikdə bütün regionun inkişafına müsbət töhfəsini verir.

# Qonağa yeni Bakı Limanının yükaşırma imkanları barədə ətraflı məlumat verilib

***Bakı Beynəlxalq Dəniz Ticarət Limanı beynəlxalq əlaqələrini genişləndirməyə davam edir.***




Limandan bildirilib ki, sentyabrın 28-də Bolqarıstanın Limanlar İnfrastrukturu Şirkətinin baş direktoru Anquel Zaburto Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər edib.

Qonağa Avrasiya nəqliyyat və logistika şəbəkəsində mühüm rol oynayan yeni Bakı Limanının yük aşırma imkanları, yüklərin çeşidi və yaradılacaq Ələt Azad Ticarət Zonasının potensialı barədə məlumat verilib.

# Belaruslu memar Xəzər dənizi sahilində böyük ekoloji park salmağı təklif edir

***Bakıda - Xəzər dənizi sahilində ekoloji mühiti tənzimləyən böyük ekoloji park salmaq niyyətindəyik.***




Bu fikirləri "Eko–Sahil" Beynəlxalq Memarlıq Festivalının iştirakçısı – belaruslu memar Lidiya Lesnyakova deyib.

O, bildirib ki, layihəni işləməzdən əvvəl Bakının memarlığı ilə yaxından tanış olub. Layihənin həyata keçiriləcəyi ərazinin əvvəllər sənaye sahəsi olmasına diqqət yetirən L.Lesnyakova burada ekoloji parkın yaradılmasını daha məqsədəuyğun hesab edib. Elə layihənin özü də "Eko park" adlanır.

Memar həmçinin qeyd edib ki, əsas konsepsiya Xəzərin sahilboyu ərazisini bərpa etməkdir. Layihədə yeni obyektlərin inşası planlaşdırılıb.

# İqtisadi fəal əhalinin sayı 4 milyon 970 min nəfərdən çox olub

***Cari ilin sentyabrın 1-nə olan ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4 milyon 970,7 min nəfər olub, onlardan 4 milyon 724,6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib.***




Dövlət Statistika Komitəsindən bildirilib ki, cari il avqustun 1-nə olan məlumata görə isə muzdla işləyənlərin sayı 1 milyon 521,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 888,8 min nəfər, qeyri-dövlət sektorunda isə 632,3 min nəfər təşkil edib. İqtisadiyyatın neft sektorunda 34,6 min nəfər, qeyri-neft sektorunda isə 1 milyon 486,5 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,0 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,9 faizi emal sənayesində, 6,9 faizi tikintidə, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,3 faizi mədənçıxarma sənayesində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 22,1 faizi təhsil, 18,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,0 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,7 faizi istirahət, əyləncə və incəsənət, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 1,8 faizi maliyyə və sığorta fəaliyyəti, 1,6 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,0 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

## İl ərzində dəniz yolu ilə Avropaya keçmək istəyən 3,5 min mühacir həyatını itirib



***Siciliya boğazı zonasında Aralıq dənizi vasitəsilə Avropaya keçməyə cəhd göstərərkən həlak olmuş 28 miqrantın cəsədi tapılıb. Bu barədə məlumatı İtaliyanın sahil mühafizəsi xidməti yayıb.***

RİA Novosti informasiya agentliyinin verdiyi xəbərə görə, ümumilikdə oktyabrın 4-də Roma sahil mühafizəsi operativ mərkəzinin koordinasiyası ilə aparılan 33 axtarış-xilasetmə əməliyyatının gedişində 27 rezin qayıqda və 6 kiçik gəmidə olan 4655 qeyri-leqal mühacir xilas edilib. Əməliyyatlarda İtaliya və İrlandiya hərbi dəniz qüvvələrinin, EC Frontex agentliyinin, habelə bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının gəmiləri iştirak edib. Bir gün əvvəl Siciliya boğazı zonasında daha 6 min mühacir xilas olunmuşdu.

Beynəlxalq Miqrasiya Təşkilatı oktyabrın 4-də yaydığı məlumatda bu il dəniz yolu ilə Avropaya keçməyə cəhd edən 3 min 502 nəfərin həlak olduğunu və ya itkin düşdüyünü bildirib.

Xatırladaq ki, ən böyük miqrant faciələrindən biri sentyabrın 21-də Aralıq dənizinin Misir sahilləri yaxınlığında yaşanıb. Qeyri-leqal mühacirləri daşıyan qayığın batması nəticəsində 200-dən çox insan həlak olub.

Bununla yanaşı, dəniz yolu ilə Avropaya keçən qaçqınların ümumi sayı 302 min 975 nəfərə çatıb. Onların əksəriyyətini Yunanıstan (167 min 74 nəfər) və İtaliya (132 min 69 nəfər) qəbul edib.



## Sahil mühafizə xidməti yalnız 150 nəfəri xilas edə bilib

***Aralıq dənizinin Misir sahillərində miqrantları daşıyan gəminin batdığı ərazidə axtarış işlərini davam etdirən xilasedicilər ümumilikdə sudan 168 nəfərin cəsədini çıxarıblar. Bu barədə Misirin "Nayl-TV" kanalı məlumat yayıb. Telekanal, həmçinin yüzdən çox insanın itkin düşdüyünü bildirib.***

Xatırladaq ki, göyərtəsində Afrikanın müxtəlif ölkələrindən 400-600 miqrantın olduğu gəmi sentyabrın 21-də Misir sahillərindən 12 kilometr aralıqda batıb. Sahil mühafizə xidməti yalnız 150 nəfəri xilas edə bilib.

Misirin sahil mühafizə xidməti hər həftə Aralıq dənizi vasitəsilə Avropaya keçmək istəyən qeyri-qanuni miqrantlar barədə məlumat verir. Misirdə Avropa ölkələrinə getmək istəyənləri gəmilərlə aparan cinayətkar mütəşəkkil qruplaşmalar fəaliyyət göstərir. Bəzi məlumatlara görə, bunun üçün mühacirlərdən adambaşına iki min dollar alınır. İnsanlarla hədsiz dərəcədə yüklənmiş nasaz gəmi və qayıqların açıq dənizə çıxması isə çox vaxt bu cür ağır faciələrlə nəticələnir.

Batan qayığın sərnişinləri arasında əsasən Sudan, Misir və digər Afrika ölkələrinin vətəndaşları olub.

Misir Prokurorluğunun qərarı ilə qeyri-leqal miqrantlarla Aralıq dənizində batmış gəmi komandasının dörd üzvü saxlanılıb. Bu barədə "Əl-Youm 7" portalı xəbər verir. Bildirilir ki, kütləvi insan tələfatına səbəb olmuş hadisə ilə bağlı daha beş nəfərin axtarışı elan edilib.



## Kür və Araz çaylarında biogen maddələrin miqdarı normanı keçib

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə sentyabr ayının üçüncü ongünlüyü üçün növbəti monitorinq keçirib.***

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında su sərfi sentyabr ayının ikinci ongünlüyünə nisbətən saniyədə 32 kubmetr artıb. Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 4,3, Ağstafaçayda 4,1, Ağstafaçay su anbarında isə 4 dəfə yol verilən qatılıq həddini keçib.

Fenolların Araz çayı üzrə Horadizdə 3,1, Birinci Şahsevəndə 3,2, Bəhramtəpədə isə 2,9 dəfə yol verilən qatılıq həddini keçdiyi müəyyən edilib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi qeydə alınıb.

# Gəmiçilik yanğının söndürülməsi və qəzanın nəticələrinin aradan qaldırılmasında xüsusi rol oynayıb

***Sentyabrın 26-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Günəşli" yatağındakı 19-cu stasionar dərin dəniz özülündə 71 saylı quyuda təmir işləri aparılarkən baş verən qaz təzahürü barədə məlumat "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə daxil olan kimi dərhal Gəmiçilik tərəfindən təxirəsalınmaz tədbirlər görüldü.***

SOCAR və Fövqəladə Hallar Nazirliyi ilə daimi əlaqə saxlayaraq, tələb olunan bütün gəmilər hadisə yerinə mobilizasiya olundu və dənizdə aparılan əməliyyatların koordinasiyası təmin edildi. Hadisə yerində Gəmiçiliyin "Nefteqaz-64" və Nefteqaz-10" gəmilərində qərargah yaradıldı və hadisə yerinə cəlb olunan gəmilərin işi koordinasiya olundu, əməliyyata cəlb olunan



gəmilərin fəaliyyəti vahid mərkəzdən idarə edildi.

Qəzanın aradan qaldırılmasında və saat 18-dən sonra başlamış yanğının söndürülməsinə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə (AXDG) məxsus "Nefteqaz-10" və "Nefteqaz-64", AXDG-yə məxsus, FHN tərəfindən idarə olunan "Vixr-5" və "Vixr-7" gəmiləri ilə bərabər, BP Azərbaycan şirkətinin rəhbərliyinin razılığı və köməkliyi ilə həmin şirkətə xidmət göstərən gəmilər də cəlb edilmişdi. Belə ki, Xəzərdə ən böyük yedək-təchizat gəmisi olan Gəmiçiliyin "Lənkəran" gəmisi, AXDG - BUE Caspian Alyansının həmin şirkətə xidmət göstərən "Topaz Dignity", "Caspian Protektor", "Caspian Voyager" gəmiləri və onların heyətləri qəzanın aradan qaldırılmasında xüsusi rol oynadılar.

Səhər saatlarında alov söndürüldükdən sonra özüldə təmir-bərpa işlərinə başlandı. Gəmiçiliyin "G.Şıxlinski" və "Şirvan-2" kran gəmiləri, "Nefteqaz-64", "Aura", "Om" təchizat-yedək gəmiləri, AXDG-yə məxsus, FHN tərəfindən idarə olunan "Vixr-5" və AXDG - BUE Caspian Alyansının "Caspian Server" gəmiləri qəzanın nəticələrinin aradan qaldırılması ilə əlaqədar aparılan işlərdə fəal iştirak etdilər.

# "XƏZƏR-2016" BEYNƏLXALQ KOMPLEKS TƏLİMDƏ İŞTİRAK EDİBLƏR

***Sentyabrın 21-22-də Rusiya Federasiyasının Həştərxan vilayətində Xəzəryanı ölkələr – Azərbaycan, Rusiya, İran, Türkmənistan və Qazaxıstanın fövqəladə hallar üzrə məsul qurumlarının iştirakı ilə "Xəzər-2016" beynəlxalq kompleks təlim keçirilib.***

Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən bildiriblər ki, beynəlxalq kompleks təlimdə fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyevin rəhbərliyi ilə nazirliyin "BE-200ÇS" tipli amfibiya təyyarəsi, "Vixr-9" yanğınsöndürən gəmisi və xilasedici dəstəsi texnogen qəzanın nəticələrinin aradan qaldırılması əməliyyatında uğurla iştirak edib.

Azərbaycan nümayəndə heyəti təlim çərçivəsində qərargahda yaradılmış videokonfransa və "Risklərin qlobal tendensiyaları və beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilmiş konfransa da qatılıb.









# TAP BORU KƏMƏRİNİN ALBANİYA HİSSƏSİNİN TİKİNTİSİNƏ BAŞLANILIB

***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Albaniya hissəsinin tikintisinə başlanılıb.***

Bu barədə boru kəmərinin operatoru olan TAP AG-nin saytında məlumat verilir. Bildirilir ki, bu münasibətlə Fier şəhəri yaxınlığında keçirilən mərasimdə Albaniyanın Baş naziri Edi Rama, bu ölkənin energetika və sənaye naziri Damian Gjiknuri və TAP-ın icraçı direktoru Yan Bradşou iştirak edib.

Baş nazir E.Rama və D.Gjiknuri layihənin Albaniya üçün əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, ölkənin ən böyük xarici sərmayələrin biri kimi TAP Albaniyanın enerji sektorunun inkişafına müsbət təsir göstərəcək və digər xarici investisiyaların stimullaşdırılmasına kömək edəcək.

TAP-ın icraçı direktoru Y.Bradşou deyib: "TAP son bir neçə il ərzində çox böyük tərəqqi əldə edib və bunu əyani sübutu isə məhz bu gün burada görünür. Bütün bu işlər - TAP-ın həyata keçirilməsi Albaniya hökuməti ilə əməkdaşlığımızın nəticəsidir".

İndiyədək TAP-ın tikinti işləri çərçivəsində Albaniyada 23 kilometrlik hissə partlamamış hərbi sursatdan təmizlənib, 12 kilometr boru marşrut xətti boyunca düzülüb, 8 kilometr boru qaynaq edilib. Həmçinin boruların 56 faizi gətirilib, yollar və körpülərin modernləşdirilməsinin 94 faizdən çoxu başa çatıb, işçi qüvvəsinin 90 faizi isə məhz Albaniyadandır.







Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək.

Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 871 kilometr (Yunanıstan – 547 kilometr, Albaniya – 211 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 36 düym). Bu il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. Bu il Azərbaycanın TAP layihəsinə 278 milyon dollar ayırması planlaşdırılır.

TAP üzrə tələb olunan kapital xərcləri 5 milyard dollardır. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. Boru kəmərinin 2020-ci ildə istismara verilməsi nəzərdə tutulur. TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# ÖTƏN AY BTC KƏMƏRİ İLƏ TƏXMİNƏN 2,1 MİLYON TON AZƏRBAYCAN NEFTİ NƏQL OLUNUB

***Cari ilin sentyabr ayı ərzində Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə 2 milyon 55 min 791 ton Azərbaycan nefti nəql edilib.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu ilin yanvar-sentyabr aylarında bu kəmərlə 22 milyon 43 min 322 ton neft ötürülüb. Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən bu il oktyabr ayının 1-dək BTC-yə 314 milyon 915 min 856 ton neft vurulub.

Bundan başqa, cari ilin sentyabr ayında BTC kəməri ilə 374 min 160 ton Türkmənistan nefti nəql olunub.





## Xəzər dənizinin dibində I Pyotr donanmasının batmış gəmiləri axtarılır

***Rusiya Coğrafiya Cəmiyyəti Xəzər dənizinin dibini tədqiq etmək üçün Dərbəndə ekspedisiya göndərib. Dalğıclar I Pyotr donanmasının batmış gəmilərini axtarır. Təxminən 300 il əvvəl rus imperatoru Fars yürüşünə yollanmış və onun donanması güclü qasırğa nəticəsində çox sayda gəmisini itirmişdi. Alimlər artıq Dərbənd yaxınlığında bir neçə tapıntı aşkarlamağa müvəffəq olublar.***

Rusiyanın NTV telekanalı xəbər verir ki, Xəzər dənizinin 10 metr dərinliyində dalğıclar görünüşünə görə gəmi lövbərinə bənzər dəmir əşya tapıb. Tapıldığı yerdə diqqətlə tədqiq olunan lövbərin yaxınlığında həmin donanmaya məxsus ola biləcək taxta gəmi fraqmentləri də aşkarlanıb.

I Pyotr fars və ya Xəzər yürüşünü təxminən 300 il bundan əvvəl, 1722-ci ildə təşkil etmişdi. O vaxt imperatorun şəxsən başçılıq etdiyi yürüşə 200 gəmi cəlb olunmuşdu. Mahiyyət etibarilə bu kampaniya Rusiyanın Qafqazda hərbi iştirakının başlanğıcına çevrilmişdi. I Pyotr yürüş zamanı bir neçə gün Dərbənddə qalmışdı. Lakin Xəzər dənizində başlayan payız qasırğaları və bu səbəbdən onlarla gəminin batması rusların Cənubi Qafqazın içərilərinə doğru hərəkətini yarıda qoymuşdu.

İmperator gəmilərin batdığı yerə dair hazırda bir neçə fərziyyə mövcuddur. Ekspedisiyanın məqsədi də tarixçilərin və yerli sakinlərin verdiyi məlumatları yoxlamaqdır.

## Qəzanın başvermə səbəbləri hələlik məlum deyil



***Banqladeşdə sərnişin qayığının batması nəticəsində 12 nəfər həlak olub. Bu barədə Sinxua agentliyi yerli hakimiyyət orqanlarına istinadla məlumat yayıb.***

Hadisə nəticəsində daha 18 nəfərin itkin düşdüyü bildirilir.

Qəzanın başvermə səbəbləri hələlik məlum deyil.



## Göyərtəsində kimyəvi maddələr olan qəzalı tanker limana gətirilib

***Yaponiya sahillərində göyərtəsində kimyəvi maddələr olan qəzalı tanker sentyabrın son günlərində qoşqu vasitəsilə limana gətirilib.***

Sahil Mühafizə Xidmətinin yaydığı məlumata görə, tankerdən 30 tondan artıq su çıxarıldıqdan sonra o, normal vəziyyətə gətirilib. Qəza zamanı zərərli maddələrin dənizə sızmasının qarşısını almaq mümkün olub.

Göyərtəsində 400 min ton kaustik soda olan yapon "Yova-maru" tankeri sentyabrın 30-da qəzaya uğrayıb. Limandan çıxdıqdan dərhal sonra gəmiyə su dolmağa başlayıb və onun batma təhlükəsi yaranıb. Xilasedicilər əvvəlcə gəminin heyətini xilas ediblər. Qəza nəticəsində xəsarət alan olmayıb.



## Sentyabrda Ceyhan limanından 2,3 milyon tondan çox Azərbaycan nefti dünya bazarlarına yola salınıb

***Bu ilin sentyabr ayı ərzində 2 milyon 37 min 633 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb.***

SOCAR-ın mətbuat xidmətindən bildirilib ki, bu həcmin 942 min 882 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) nefti təşkil edib. Cari ilin yanvar- sentyabr aylarında isə Ceyhan limanından ixrac olunmuş neftin həcmi 22 milyon 140 min 885 ton təşkil edib.

Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) istismara verilən gündən bu il oktyabr ayının 1-dək Ceyhan limanından 313 milyon 334 min 657 ton Azərbaycan nefti dünya bazarlarına yola salınıb.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)

### Vano Strua adına zavodda müdafiə işləri

Böyük vətən müharibəsi günlərində Vano Strua adına gəmi təmiri zavodunda hərbi işlərin canlandırılmasına ciddi fikir verilir. Zavodun bütün fəhlələri, injener-texniki işçiləri və qulluqçuları hərbi işi təkidlə öyrənərək müdafiə işlərində aktiv iştirak edirlər.

Zavodun təsərrüfat başçıları və partiya təşkilatları rəhbərləri müdafiə işlərinə gündəlik rəhbərlik etməklə, özləri belə mühüm işdə nümunə göstərirlər. Məsələn ilk Osoaviaxim və Hilal Əhmər cəmiyyəti təşkilatlarına zavodun direktoru Soyfer yoldaş rəhbərlik edir. Məhz buna görə də zavodda müdafiə işləri birinci gündən nümunəvi təşkil edilmişdir. 1942-ci ildə zavodda Osoaviaxim sıraları 138 nəfər artmış və çoxlu HKHM instruktoru hazırlanmışdır.

Hazırda zavodun siyasi hazırlıqlı və hərbi təlim keçmiş qabaqcıl staxanovçularından 15 nəfər komandir və 10 nəfər siyasi rəhbər ayrılmışdır ki, onlar təşkil edilmiş müdafiə dərnəklərinə rəhbərlik edirlər.

Zavodda işləyən vətənpərvər qadınlar dəxi hərbi işi dərindən öyrənirlər. Zavodda hazırda 30 nəfərdən ibarət ayrıca olaraq qadınlar dərnəyi təşkil edilmişdir ki, burada müdafiə işləri həvəslə öyrənilir. Bu dərnəyin komandiri və siyasi rəhbəri zavodun staxanovçu qadınlarından dəzgahçı Kotova və Belousova yoldaşlardır.

Kotova və Belousova yoldaşların qadınlar komandasına yaxşı rəhbərlik etmələri nəticəsində keçirilən hərbi dərslər səmərəli və məzmunlu olur. Hazırda qadınlar döyüş silahlarını və HKHM qaydalarını yaxşı bilirlər.

Ölkə müdafiəsi işlərinin öyrənilməsində komsomolçular və komsomolda olmayan gənclər daha nümunəvi olmalıdırlar. Lakin zavodun komsomolçuları və komsomolda olmayan gəncləri müdafiə işlərinin öyrənilməsində hələ bu günə kimi özlərini göstərə bilməmişlər.

Vano Strua adına zavodun rəhbərləri müdafiə işlərinin öyrənilməsində əldə etdikləri müvəffəqiyyətləri möhkəmlətməli və bu işdə səhlənkarlıq edənlərin qarşısını almalıdırlar.

***S. Qulu,***
***“Kaspi bolşeviki” qəzeti, 8 yanvar 1943-cü il, № 3 (1786)***

### Cəbhəyə yardımı artıracağıq

1943-cü il yanvarın 1-də səhər tankerimiz körpüyə yan aldı. Cəbhə səfəri vaxtından 64 saat qabaq yerinə yetirilmişdi. Cəbhəyə yardım olaraq biz, 1943-cü ildə ilk şəxsi hesabımızı belə açmışıq.

Molotov adına zavod kollektivinin təşəbbüsünə qoşularaq, tankerimizin ekipajı Qızıl Ordunun XXV ildönümü adına cəbhə vaxtasına durmuşdur.

Öhdəmizə götürdüyümüz təəhhüdlər aşağıdakılardan ibarətdir:

Fevralın 23-nə kimi ekipajın qüvvəsilə 1000 ton yük işləməli.

Hər səfərdə plandan əlavə 300 ton yük götürməli.

Baş mühərriklərin cari təmirini və sair hissələrin söküb-quraşdırılması işini qurtarmalı.

Gəminin hərkəti zamanı, yanalma və yola düşmə əməliyyatı zamanı istismar vaxtına 3 saatdan az olmayaraq qənaət etməli.

Fevralın 23-nə kimi ekipajın üzvlərindən 20 nəfəri, ikinci bir dənizçilik ixtisasına yiyələnəcəkdir. Biz hər gün və hər səfərdə cəbhəyə yardımı getdikcə daha da artıracayıq.

***Kapitan V. Rəhimov,***
***Siyasi köməkçi P. Toçilin,***
***Baş mexanik A. Borodin.***

### Dənizçilərin təəhhüdü

Gəmimizin ekipajı Molotov adına zavod kollektivinin çağırışını müzakirə edərək, Qızıl Ordunun XXV ildönümünü yeni əmək igidlikləri ilə qarşılamağı öhdəsinə almışdır.

Yanvarın 8-də biz porta plandan əlavə 145 ton müdafiə yükü gətirmişik. Vətən müdafiəsi işində biz yeni ilə belə qədəm qoymuşuq.

Keçən il bizim ekipaj port işçilərinə sosialist yardımı olaraq, 1.000 ton yük işləmişdir. Biz gələcəkdə dəxi ekipajın qüvvəsi ilə yük vurma və boşaltma işləri aparacağıq.

Qızıl Ordunun XXV ildönümünə kimi biz öhdəmizə alırıq ki, 2 aylıq daşınma planını vaxtından əvvəl yerinə yetirək və maşın komandasının qüvvəsilə maşın hissələrinin cari təmirini keçirək.

***Kapitan M. İsmayılov,***
***“Kaspi bolşeviki” qəzeti, 13yanvar 1943-cü il, № 4 (1787)***

### Tanker ekipajının təəhhüdü

Molotov adına zavod kollektivinin çağırışına səs verərək, Şiferman yoldaşın kapitan olduğu tankerin ekipajı Qızıl Ordunun XXV ildönümü şərəfinə sosializm yarışına qoşulmuş və öhdəsinə aşağıdakı təəhhüdləri götürmüşdür:

Hər səfərdə tapşırığı 103 faizdən az olmayaraq yerinə yetirsin.

Yanalma və yola düşmə əməliyyatında vaxta 30 dəqiqə qənaət etsin.

Maye yükünün doldurulması və boşaldılmasında vaxta bir saat və gəminin hərəkət vaxtına bir saat qənaət etsin.

Təsərrüfat xərclərini 5 faiz aşağı salsın. Hər ay yanacağa 5 faiz, maşın yağlarına 2 faizə qədər, silgi və rəngləmə materiallarına 10 faizə qədər qənaət etsin.

1943-cü il aprel ayının 1-nə kimi aşağıdakı ixtisaslar üzrə gənc kadrlar hazırlasın: 3 nəfər baş motorist, 3 nəfər I klass motoristi, 3 nəfər II klass motoristi, 1 nəfər mexanik, 3 nəfər kiçik elektrik, 1 nəfər donkerman, 3 nəfər I klass matrosu və 9 nəfər siqnalçı.

Bütün ekipaj üzvlərini birər hərbi ixtisas öyrənməyə hazırlasın və aprelin 1-nə kimi 12 nəfər pulemyotçu, 9 nəfər avtomatçı və 10 nəfər zenit topçusu buraxsın.

Baş mühərriklərin və yardımçı mexanizimlərin bütün xırda və cari təmirini ekipajın qüvvəsilə keçirsin.

***“Kaspi bolşeviki” qəzeti, 15yanvar 1943-cü il, № 5 (1788)***

### “Sovet dənizçisi” tank kolonnası yaratmaq fonduna vəsait toplanışı

Paris Kommunası adına zavodun təmir edən işçiləri “Sovet dənizçisi” aviasiya eskadriliyaları və tank kolonnası yaratmaq fonduna vəsait toplanışı işində böyük ruh yüksəkliyi ilə iştirak edirlər.

7 nömrəli sexin komsomol-gənclər kollektivi 5085 manat toplamışdır. Təmir-mexaniki sexinin kollektivi 2138 manat, naviqasiya sexinin kollektivi 3137 manat və sairə vermişlər.

Bir neçə gün ərzində zavodda 30.412 manat toplanmışdır.

Vəsait toplanışı müvəffəqiyyətlə davam edir.

“Sovet dənizçisi” tank kolonnası yaratmaq fonduna “Yeni yol” paraxodunun ekipajı 2.375 manat, “Spartak” paraxodu 665 manat toplamışdır. Gəmiçilik idarəsində 12.400 manat və gəmiçiliyin Siyasi şöbəsində 1500 manat toplanmışdır. Vəsait toplanışı davam edir.

Qızıl vımpelli “Türkmənistan” teploxodunun ekipajı qəhrəman Qızl Ordumuzun diqqətəlayiq qələbələrindən hədsiz dərəcədə ruhlanaraq, böyük sevinc hissi ilə “Sovet dənizçisi” tank kolonnası yaratmaq fonduna 25.000 manat pul vermişlər.

***“Kaspi bolşeviki” qəzeti, 20 yanvar 1943-cü il, № 6 (1789)***

### Dənizçilərin mübariz vəzifələri

Müharibə şəraiti Kaspinin bütün dənizçilərindən tələb edir ki, onlar öz qüvvələrini qəhrəmancasına gərginləşdirib, cəbhə yüklərinin birinci növbədə daşınmasını təmin etməkdən ötrü əmək igidlikləri göstərsinlər. Müharibə, - quruyük, neft daşıyan və texniki flotun gəmi ekipajlarından və port işçilərindən xüsusi operativçilik, öz işlərini tez bir vaxt içərisində yenidən qurmağı bacarmaq, yeni daşınma növlərini mənimsəmək, gəmilərin yük götürmə qabiliyyətini artırmaq, yükləri sürətlə göndərməyi tələb edir.

Dənizçilər bu mübariz vəzifələrin öhdəsindən əsas etibarı ilə şərəflə gələ bilmişlər. Qabaqcıl gəmi ekipajları, gəmiçilik və portların işçiləri, zavodların kollektivləri Ümumittifaq sosialzm yarışını hərtərfəfli genişləndirmək və bu yarışda aktiv iştirak etmək nəticəsində yüksək sovet vətənpərvərliyi nümunələri və vətənə hədsiz məhəbbət göstərmiş, bununla da birinciliyi qazanmağa və mükafat almağa nail olmuşlar.

“Türkmənistan” teploxodunun ekipajı beş aydır ki, Dövlət müdafiə Komitetinin keçici vımpelini özündə saxlayır. Ekipaj, qabaqcıl kollektivin müharibə günlərində daşınmaları mənimsəmək uğrunda necə mübarizə aparmaq lazım gəldiyini bir sıra faktlarla göstərə bilmişdir.

Kaspflotun, Kasptankerin bir çox gəmi kollektivləri, Kasptexflotun yerqazıyan karvanları və port işçiləri işdə diqqətə layiq göstəricilər əldə edə bilmişlər. Yük daşınmalarını artırmaq uğrundakı mübarizədə yedək götürmək sistemi flotun iş təcrübəsində geniş surətdə tətbiq edilməkdədir. Kaspflotun flaqmanı olan “Türkmənistan” teploxodunun təşəbbüsü ilə gəmilərimiz indi nəinki yük və tanker gəmilərini, həm də xüsusi yedək qurğusu olmayan əmtəə-sərnişin gəmilərini yedəyə götürürlər.

Kapitanlardan Rəhimov, Paxalok, Bakurin və başqaları bununla kifayətlənməyərək eyni zamanda 2 və 3 yedək götürməklə səfər yük daşınmasının xeyli artmasını təmin etmişlər. Yalnız bircə yedək götürmək üçün Kaspflot və Kasptanker gəmiçilikləri 1942-ci ildə 150 min manatdan yuxarı mükafat vermişlər.

Gəmi ekipajları zavod təmirinə durmadan üzmək vaxtının uzadılması uğrunda mübarizəni genişləndirmişlər. Gəmini texniki cəhətcə nümunəvi halda saxlamaq, qayda və intizama ciddi rəayət etmək bir çox gəmi komandalarının şərəf işi olmuşdur. Xalq Dəniz Flotu Komissarlığı tərəfindən gəmilərdə keçirilən inspektor baxışı göstərmişdir ki, baş mexaniklərdən Klemansov, Pavlov, Beleski, Oxonko, Sviridov və başqaları maşın komandanlarını, nəinki mexanizmlərin cari təmirini keçirmək işinə, həm də bunların orta təmirini keçirmək işinə səfərbərliyə almağı bacarmışlar.




Portlarda flotun boş dayanma hallarını ixtisara salmaqda, gəmilərin işlənməsini sürətləndirməkdə gəmi ekipajları yükvurma və boşaltma işində port işçilərinə böyük kömək göstərmişlər. Hazırda Kaspidə elə bir gəmi tapmazsan ki, onun komandası öz gəmisinin yük əməliyyatında iştirak etməsin. “Türkmənistan” teploxodunun qabaqcıl ekipajı bu işdə daha da yük işlənməsini müstəqil surətdə öz qüvvəsi ilə keçirmək nümunəsini göstərmişdir.

Bu təşəbbüsə gəmi komandaları geniş səs vermişlər. “Moskva” teploxodu gəmi ekipajının çağırışı üzrə onların arvadları gəminin yüklənməsi və boşaldılmasına yardım etməyə gəlmişlər. Bu təşəbbüs nəinki bizim hövzənin, həmçinin sair hövzələrin dənizçi ailələrini də cəbhəyə bu cür praktiki yardım göstərmək üçün geniş surətdə səfərbərliyə alacaqdır.

Kaspinin portları cəbhə yüklərinin daşınmasını təmin etməkdə ciddi işlər görmüşlər. Kaspi dənizçiləri qəhrəman Qızıl Ordumuza yardımı getdikcə gücləndirərək, 1943-cü ilə yeni istehsalat qələbələri ilə gəlmişlər. Dekabr ayında daşınma planı Kaspflot gəmiçiliyi, Baki və Krasnavodsk portları üzrə artıqlaması ilə yerinə yetirilmişdir.

Hərbi Komandanlıq Kaspinin yaxşı adamlarının işinə müsbət qiymət verərək, qabaqcıl dənizçi və portçuları SSR İttifaqının orden və medaları ilə təltif etmişdir.

Fəxri təltiflər hövzənin dənizçi kollektivini məcbur edir ki, onlar əldə etdikləri müvəffəqiyyətlərlə sakitləşməyib, daha təkidlə və daha yaxşı işləsinlər; cəbhəyə elə yardım göstərsinlər ki, nəinki qış naviqasiyasını təmin etsinlər, həm də 1943-cü ilin yay naviqasiyasına hazır olsunlar.

Gəmilərin ən qısa bir müddət içərisində və yüksək keyfiyyətlə təmir edilməsi bu günün ən zərbəli məsələlərindən biridir. Bu vəzifə, hövzəmizin bütün dənizçilərindən böyük qüvvə və energiya tələb edir. Heç şübhə yoxdur ki, dənizçilərimiz bu vəzifənin öhdəsindən şərəflə gələcəklər.

***F. A. Matyuşev,***
***SSRİ Xalq dəniz flotu komissarının müavini, Kaspflotun naçalniki,***
***“Kaspi bolşeviki” qəzeti, 29 yanvar 1943-cü il, № 9 (1789)***

### Bütün qüvvələri cəbhəyə yardıma verək Neftdaşıyan flotun bütün dənizçilərinə

*Əziz yoldaşlar!*

Kasptanker dənizçilərinin qarşısına mühüm və məsul vəzifə qoyulmuşdur; bu vəzifə, Qızıl Ordu və xalq təsərrüfatının neft məhsullarına olan tələbatını ödəməkdən ibarətdir. Nemes-faşist qoşunlarına qarşı müvəffəqiyyətlə hücum edən Qızıl Ordumuzu və bütün xalq təsərrüfatımızı təmin etmək üçün mühüm su magistralı olan Kaspi dənizi – Volqa çayı ilə yanacaq daşımağın – düşmən qoşunlarının tamamilə darmadağın və məhv edilməsi işində böyük hərbi əhəmiyyəti vardır.

Bu tədbir, tanker flotunun dənizçilərini məcbur edir ki, vətənimizin bu qədər məsul tapşırıqlarının yerinə yetirilməsinə qabaqcadan hazırlaşsınlar. Kasptanker dənizçiləri 1943-cü il naviqasiyasında nəinki Dövlət Müdafiə Komiteti tərəfindən müəyyən edilmiş neft daşınması planını yerinə yetirməli, həm də naviqasiyanın birinci günlərindən başlayaraq bu planı artıqlaması ilə ödəməlidirlər.

Böyük vətən müharibəsi şəraitində keçən 1942-ci il naviqasiyası dənizçilərin yüksək vətənpərvərlik hissini, onların durmadan və fədakarlıqla işləmək həvəsini, cəbhə qaydasında işləyərək cəbhəyə və xalq təsərrüfatına tələb olunan qədər yanacaq, döyüş sursatı və silah daşımaq arzusunu göstərdi.

Neft daşıyan flotun dənizçiləri!

1943-cü il naviqasiyasının ilk səfərindən başlayaraq, neft daşımasının bolşevik iş sürətlərinə yiyələnin. Tankerlərin yükgötürmə qabiliyyətini artırmaq üçün bütün istifadə edilməmiş imkanlardan son dərəcəyə qədər istifadə edin. Gəmilərin qoşa və üç yedək götürməsini təşkil edin; yanacaq və su ehtiyatına olduqca qənaət edin. Tankerləri ağzına qədər yükləyin, neft məhsullarının mühafizə edilməsi uğrunda mübarizə aparın, bunlara su qarışmasına imkan verməyin. Öz fədakar əməyinizlə nəinki, daşınma planının yerinə yetirilməsinə, həm də plandan əlavə səfərlər edilməsinə nail olun. Yadda saxlayın ki, gəmilərin fasiləsiz işi o vaxt təmin edilə bilər ki, hər gün bütün naviqasiya müddətində ekipaj texniki istismar qaydalarına dürüst riayət etsin, mexanizmlərin işində olan bütün uyğunsuzluqları öz vaxtında və bilatəxir aradan qaldırsın. 1942-ci ilin iş təcrübələrindən istifadə edin, gəmini işdən saxlamamaqla, yürüş zamanı öz qüvvənizlə qazantəmizlənməsi və daxili təmir işi keçirin.

Gündən-günə hər bir gəminin, hər obyektin hərbi qüdrətini artıraraq, hər bir tankeri vətənimizin polad qalasına çevrimək lazımdır. Hər bir gəmidə bütün mexanizmlərə və avadanlığa profilaktiki baxış təşkil edib, bunlara ciddi diqqət yetirin. Hərəkət qrafiki nəqliyyatın işində dəmir qanundur. Gəminin aldığı hər bir tapşırıq ətraflı surətdə bütün ekipajın nəzərinə çatdırılmalı, onun layiqincə yerinə yetirilməsi üçün bu tapşırıq diqqətlə düşünülməlidir.

Hər bir yerdə və hər bir şeyə qənaət etmək hər bir dənizçinin mübariz şüarı olmalıdır. Çoxlu təşəbbüs göstərib çoxlu səmərəli təklif vermək lazımdır. Çünki bunların həyata keçirilməsi ölkənin müdafiə fonduna böyük hədiyyədir. Keçmişin biabırçı mirası olan başısoyuqluq, intizamsızlıq, proqul etmə və flotun boş dayanması hallarını bir dəfəlik və qəti surətdə aradan qaldırmaq lazımdır. Hər bir avariyaya yol vermək-vətənə xəyanət etmək deməkdir. Hər bir boş dayanma-döyüşdə məğlub olmaq deməkdir.

“SSRİ Dəniz flotu gəmilərində xidmət etmək ustavı”nın hər bir ekipaj üzvü tərəfindən dönmədən yerinə yetirilməsi portlarda baş verə biləcək avariya və səmərəsiz prostoyların qarşısını alar.

Kaspi dənizçiləri, revolyusion sayıqlığı yüksəklərə!

Yadda saxlamaq lazımdır ki, düşmən qəddar və rəhmsizdir; o cəhd edir ki, işimizdə olan hər bir zəif cəhətdən, hər bir nöqsandan öz interesləri üçün istifadə etsin. O, can atır ki, hər bir yerə öz aqenturasını yerləşdirsin. Öz gəminizi göz bəbəyi kimi qorumalısınız ki, heç bir başqa adam bura girə bilməsin. Daşınılan yüklər haqqında ağzıaçıqlıq etmək, bilmələri lazım olmayan adamlara yüklərin hara aparılması, gəminin texniki vəziyyəti və sair haqqında məlumat vermək yaramaz. Şəxsiyyətinə baxmayaraq hər bir boşboğazı, vahimə salanı, ağzıaçığı və provokatoru ifşa edib məsuliyyətə cəlb etmək lazımdır.

Elə etmək lazımdır ki, Kasptanker dənizçiləri, - Reydtanker dənizçiləri, portçular, dəmiryolçular və neftçilərlə başladıqları kompleks sosializm yarışında üzərlərinə fəxri təəhhüdlər götürsünlər. Ümumittifaq sosializm yarışında iştirak etməyən heç bir gəmi, heç bir növbə və heç bir dənizçi olmamalıdır. Gənc kadrlara daha çox qayğı və diqqət yetirin; 2-ci və 3-cü bir dənizçilik ixtisasına yiyələnməkdə onlara yardım göstərin.

Yoldaş gəmi təmirçiləri!

Gəmiləri vaxtında və yüksək keyfiyyətlə təmir edin, gəmi komandalarını lazımi qədər ehtiyat hissələri və avadanlıqla təmin edin.

Bütün qüvvənizlə, bütün imkanlarınızla flotun naviqasiya təmiri müddətini azaldın, öz staxanov əməyinizlə cəbhə və xalq təsərrüfatı üçün vaxtında yanacaq daşımaqda dənizçilərə kömək edin.

Təchizatçı yoldaşlar!

Ehtiyat hissələri və materialları gəmilərə öz vaxtında daşıyın, gözəl təşkil edilmiş işinizlə flotu yaxşı texniki vəziyyətdə saxlamaqda dənizçilərə və gəmi təmirçilərinə kömək edin.

İTŞ və şəhərətrafi təsərrüfatlarının işçiləri!

Yeməkxana və maqazinlərin işini yaxşılaşdırın.

Yeyinti məhsulatını gəmi və zavodlara öz vaxtında çatdırın; oğru, julik, spekulyantlarla amansız mübarizə aparın. Sosialist əmlakını oğurlayanları şiddətlə cəzalandırın. Yadda saxlayın ki, neftdaşıyan flotun fasiləsiz işi, sizin bolşevikcəsinə işləməyinizdən çox asılıdır.

Kommunist və komsomolçu yoldaşlar!

Stalin yoldaş dəfələrlə göstərmişdir ki, yalnız istehsalat işi partiya-siyasi işi ilə düzgün surətdə əlaqələndirilən zaman möhkəm təsərrüfat müvəffəqiyyətləri əldə etmək mümkündür. Partiya, komsomol və həmkarlar təşkilatları kütlələrlə əlaqəni daha da möhkəmlətməli, alovlu bolşevik sözünü kütlələrə çatdırmalı, bu ciddi günlərdə kommunist və komsomolçu olmaq arzusunda olan qabaqcıl dənizçilərə yardım göstərmək lazımdır. Ona nail olmaq lazımdır ki, hər bir iş uçastokunda partiya həyatı qaynar qazan kimi qaynayıb coşsun. Hər bir kommunist və komsomolçu, görüləcək hər bir yeni işin təşəbbüsçüsü olmalı, öz vəzifəsinə yüksək düşüncə ilə yanaşmaqda başqalarına nümunə olmalıdır. Kommunist və komsomolçular yadda saxlamalıdırlar ki, partiya-siyasi işi nə qədər yaxşı genişləndirilərsə 1943-cü ilin bolşevik naviqasiyasında bizim müvəffəqiyyətlərimiz bir o qədər çox olar.

Yoldaşlar! Böyük azadlıq müharibəsində cəbhə və arxa bir-birindən ayrılmazdır. Arxada dənizçilər, - qəhrəman Qızıl Ordu döyüşçüləri, komandirləri və siyasi işçilərinin cəbhənin qabaq mövqelərində vuruşduqları kimi, - fədakarlıqla işləməlidirlər. Partiya, hökumətimiz və böyük Stalin bizi bu nəcib işi yerinə yetirməyə çağırır.

Heç şübhə yoxdur ki, Kasptanker dənizçiləri kinli düşməni darmadağın və məhv etmək üçün vətənimizin faşist işğalçıları tərəfindən müvəqqəti olaraq işğal edilmiş rayonlarını tezliklə azad etmək üçün var qüvvələrini sərf edəcək və lazım gələrsə öz canlarından keçəcəklər.

Stalin yoldaşın mübariz əmrini vaxtından əvvəl və bolşevikcəsinə yerinə yetirək. Hücum edən Qızıl Orduya var qüvvə və hər bir vasitə ilə kömək edək.

*Hər şey cəbhə üçün!*

*Hər şey düşmən üzərində qələbə üçün!*

*Nemes işğalçılarına ölüm!*

***Gəmiçiliyin naçalniki M. Rəhimov,***
***Siyasi şöbənin naçalniki M. Xanməmmədov,***
***Tanker kapitanlarından İ. Noskov, A. Rəcəbov,***
***Baş mexaniklərdən S. Oxonkov, X. Arzumanov,***
***Kapitan siyasi köməkçilərindən B. Osipov, V. Çanturiya,***
***donkerman Q. Qusev, matros K. Heybətov.***
***“Kaspi bolşeviki” qəzeti, 3 mart 1943-cü il, № 18 (1801)***

### Xalq Dəniz Flotu Komissarlığında hərbi qulluqçuların ailələrinə yardım haqqında

Hərbi qulluqçuların ailələrinə yardım göstərilməsi haqqında Xalq Dəniz Flotu Komissarlığı Siyasi idarəsinin Şimal və Murmansk gəmiçiliklərində və Arxanqelsk portunda işlərin vəziyyətinə dair SSRİ Xalq Dəniz Flotu Komissarı Şirşov yoldaş 1943-cü il martın 12-də bir əmr vermişdir. Əmrdə qeyd edilir ki, axır vaxtlar gəmiçiliklərin və portun rəhbərliyi hərbi qulluqçuların ailələrinə yardım göstərmək sahəsində işləri bir qədər yaxşılaşdırmışlar. Həmçinin ictimai və komsomol təşkilatların da diqqəti bu işə doğru yönəldilmişdir. Lakin bu müsbət cəhətlər Şimal və Murmansk gəmiçiliklərində və Arxanqelsk portunda hərbi qulluqçu ailələrinə yardım göstərmək haqqında ümumi yarıtmaz vəziyyəti heç də ört-basdır edə bilməz.

Gəmiçiliyə və porta dəfələrlə verilən rəsmi göstərişlərə baxmayaraq FKQO və HDF sıralarına səfərbərliyə alınanların ailə üzvlərinin düzgün uçotu hələ də təşkil edilməmişdir. Şimal gəmiçiliyində ordu sıralarına çağırılan flot işçilərinin hesaba alınmaması aşkara çıxarılmışdır, hərbi qulluqçu ailələrinin şikayət və ərizələri qeydə alınmır. Murmansk gəmiçiliyində üç dənə belə ərizə itirilmişdir. Gəmiçilik idarələrində hərbi qulluqçu ailələrinin ərizə və şikayətlərinə baxılması işi süründürülür. Məsələn, Şimal gəmiçiliyi inzibat – təsərrüfat şöbəsinin naçalniki Martınov hərbi qulluqçu ailələrinin ərizə və şikayətlərini uzun müddət ləngitmişdir. Arxanqelsk portu transport şöbəsinin naçalniki Razuvayev hərbi qulluqçunun ailəsinə yanacaq çatdırılmasını iki ay yubatmışdır.

Gəmiçilik və siyasi şöbələrin rəhbərləri hərbi qulluqçu ailələrinə mədəni-kütləvi xidmət göstərilməsinin təşkili ilə məşğul olmamışlar. Vətən müharibəsi müddətində onlar üçün bir dəfə də olsun özfəaliyyət gecələri, tamaşa və kino seansları düzəldilməmişdir. Dənizçilər klublarında keçirilən ümumi müsamirə və tamaşalara hərbi qulluqçuların ailə üzvlərini dəvət etmirlər.

Xalq Komissarı gəmiçilik və portların naçalniklərinə bir vəzifə olaraq tapşırmışdır ki, 10 gün müddətinə onlar, - ordu sıralarına çağırılmış dəniz flotu işçilərinin və onların ailə üzvlərinin yaşadığı yerlərin uçotunu müəyyən etsinlər. Şəxsən gəmiçilik naçalniklərinə təklif edilmişdir ki, hərbi qulluqçu ailələrinin verdikləri hər bir ərizəyə 3 gün müddətində baxsınlar. Həmçinin təklif edilmişdir ki, hərbi qulluqçu ailələrinə mədəni xidmət göstərilməsini yaxşı təşkil etsinlər; dənizçilər klublarında verilən tamaşalarda onlar üçün məcburi surətdə müəyyən miqdarda pulsuz biletlər verilsin.

Xalq Komissarı, Martınovu işdən götürmüş və Razuvayeva şiddətli töhmət verilmişdir.

***“Kaspi bolşeviki” qəzeti, 17 mart 1943-cü il, № 22 (1805)***



## Özü hərəkət edən su taksiləri istifadəyə veriləcək

***Meqapolis üçün effektiv həllər institutu Amsterdam ərazisində özü hərəkət edən su nəqliyyatının tətbiqi üzrə beşillik proqram elan edib. "Roboat" adlı proqramın kuratorları qismində Massaçusets Texnologiya İnstitutu və Hollandiyanın iki universiteti çıxış edir.***

"therunet.com" saytı xəbər verir ki, şəhərin təxminən dörddəbir hissəsi su ilə əhatə olunub, bununla əlaqədar robot qayıqların tətbiqi böyük fayda verə bilər. Onlardan taksi, həmçinin yüklərin daşınmasında istifadə etmək planlaşdırılır. Bundan başqa, belə nəqliyyat vasitəsinin köməyi ilə şəhər hakimiyyəti su və havanın keyfiyyəti haqda informasiya alacaq. Bu məlumatlar əsasında kanalların çirklənmədən təmizlənməsi üsulları hazırlanacaq.

Layihənin reallaşdırılmasına 25 milyon dollar ayrılıb. İlk prototiplər 2017-ci ildə istifadəyə veriləcək.



## Dəniz səviyyəsindən 4,4 kilometr hündürlükdə avtomobil tunelinin tikintisi tamamlanıb

Çinin Tzinxay əyalətində dəniz səviyyəsindən 4,4 kilometr hündürlükdə avtomobil tuneli tikilib. Bu, dünyanın ən hündür dağ tuneli sayılır.

Sinxua informasiya agentliyi xəbər verir ki, yüksək dağlıq ərazidə yerləşən tuneldə işlər sentyabrın 24-də tamamlanıb. Tunelin salındığı ərazidə orta hündürlük 4400 metrdir. Maksimal nöqtə isə dəniz səviyyəsindən 4800 metr yüksəklikdə yerləşir.

Tikintisi 2013-cü ildən aparılan tunel Qoloq-Tibet muxtar rayonunda 419 kilometrlik dağ yolunun bir hissəsidir. Yolun 2017-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur.



## "Üzən ev"lə gəzintiyə də çıxmaq olar

***İrlandiyanın "Bluefield Houseboats" arxitektura kompaniyası su üzərində ev tikintisi üzrə ixtisaslaşıb.***

"novate.ru" saytının verdiyi xəbərə görə, bu evlər müştərinin zövqünə uyğun fərdi qaydada hazırlanır. Belə ki, "üzən evləri" sahəsi 45 kvadratmetrdən 185 kvadratmetrədək, 1 və ya 2 mərtəbəli olmaqla sifariş vermək mümkündür.

Tikintidə işlənən materiallar keyfiyyət sertifikatına malikdir. Evlərin bütün modellərində elektrik cihazlarına nəzarət edən SMART sistem quraşdırılıb.

Ev sahibləri həmçinin gəzintiyə də çıxa bilərlər.

## Ən yüksək taxta bina



***Kanadada inşa edilən dünyanın ən hündür taxta binasının tikintisi başa çatıb.***

"gazeta.ru" xəbər verir ki, Britaniya Kolumbiyası Universitetinin tələbə yataqxanasının binası olan "Brock Commons"un hündürlüyü 53 metrdir və 18 mərtəbədən ibarətdir.

Yataqxananın tikintisi 51,5 milyon dollara başa gəlib. Yataqxanada 400-ə yaxın tələbənin yaşaması planlaşdırılır. Hazırda binada daxili tərtibat işləri gedir. "Brock Commons" ilk sakinlərini 2017-ci ilin sentyabrında qəbul edəcək.

# AĞ ŞƏHƏR ƏRAZİSİNDƏ METRO STANSİYASI TİKİLƏCƏK

***Bakı Ağ Şəhər ərazisində metro stansiyası tikiləcək.***

Prezident İlham Əliyev tərəfindən 2011-ci ildə təsdiqlənən Bakı Metropoliteninin Perspektiv İnkişaf Planına əsasən Metropolitenin mövcud Yaşıl xəttinin ("Şah İsmayıl Xətai" – "Dərnəgül" stansiyalarını birləşdirən) genişlənməsi gözlənilir.

Bu barədə "Bakı Ağ Şəhər" layihəsinin mətbuat xidmətindən bildirilib.

"Şah İsmayıl Xətai" stansiyasından tikilməkdə olan "Həzi Aslanov 2" stansiyasına qədər Nobel prospekti boyunca 3 yeni stansiya tikiləcək. Stansiyaların şərti adları Y-14, Y-15, Y-16-dır. Bu stansiyalardan biri "Bakı Ağ Şəhər" layihəsinin ərazisində planlaşdırılıb.

Hazırda Neft Emalı Zavodunun qarşısında Y-15 stansiyasında tunel qazma maşınları üçün start kamerası hazırlanır.

Yaşıl xəttə əlavə olunan stansiyalar bu xətti dairəvi edəcək.



# Unikal göl ekoloji fəlakət təhlükəsi qarşısındadır

***Dünyanın aparıcı limnoloqları (limnologiya göllərin və digər su hövzələrinin fiziki, kimyəvi və bioloji aspektləri haqqında elmdir) Rusiyanın İrkutsk Dövlət Universitetinin (İDU) Biologiya İnstitutunun tədqiqatçıları ilə birlikdə Baykal gölündə ekoloji böhranın sürətlənməsindən narahatdırlar. "lenta.ru" saytının verdiyi xəbərə görə, müvafiq məlumat "Nature" jurnalında dərc olunub.***



İqlim dəyişmələri və Baykal gölünün sahil sularının çirklənməsi bu unikal gölün bütün ekoloji sisteminə güclü təsir göstərir. Baykalın ayrı-ayrı rayonlarında sapşəkilli "Spyrogira" yosunlarının, zəhərli sianobakteriyaların intensiv inkişafı, endemik Baykal süngərlərinin nadir növlərinin kütləvi xəstələnməsi müşahidə olunur. Baykalın ekoloji monitorinqi ilə bağlı elmi proqramların bağlanmaq həddinə çatması vəziyyəti daha da ağırlaşdırır.

İDU-nun Biologiya İnstitutu Baykalın ekoloji monitorinqi üzrə nadir layihəni 1945-ci ilin fevralından həyata keçirir. Göldə məskunlaşan planktonun vəziyyəti hər həftə öyrənilir. Alimlərin fikrincə, gölün bütün ekoloji sisteminin vəziyyətinin göstəricisi məhz plankton qruplarının vəziyyəti haqqında məlumatlardır. Rekord müddət - 70 il sürən müşahidələr sayəsində ekoloji sistem dəyişmələrinin çoxillik trendlərini üzə çıxarmaq, habelə son illər gölün əsas qruplarının sürətlə yenidən qurulduğunu müəyyən etmək mümkün olub.

Tədqiqatçılar əmindirlər ki, məhz Baykalın ekoloji sisteminin uzun müddət daim müşahidə altında olması onun qorunub saxlanmasında həlledici rol oynayır.

# Üzərində əsasən qatarların və tramvayların hərəkət edəcəyi körpünün tikintisinin 2025-ci ildə yekunlaşdırılması nəzərdə tutulub

***Yaxın zamanda Finlandiyada ölkənin ən uzun körpüsü inşa ediləcək.***



"novate.ru" saytı bildirir ki, Finlandiyanın "Knight Architects" arxitektura şirkətinin layihəsi ilə hazırlanan körpü Helsinki şəhərini Kruunuvuori mikrorayonu ilə birləşdirəcək. Uzunluğu 1,2 kilometr olan körpünün missiyası metropoliten xəttinin yükünü azaltmaqdır.

Onun üzərində əsasən qatarlar və tramvaylar hərəkət edəcək. Eyni zamanda, velosiped üçün zolaq da ayrılacaq.

Layihənin dəyəri 259 milyon avrodur. Körpünün inşasına 2018-ci ildə başlanılacaq. Tikintinin 2025-ci ildə yekunlaşdırılması nəzərdə tutulub.

# "ZİBİLYIĞAN ROBOT"

***ABŞ-ın Baltimor şəhərinin limanında "zibilyığan robot" üzür. Yuxarı hissəsində yerləşdirilmiş günəş batareyalarının enerjisindən istifadə edən və dəniz axınlarının gücü sayəsində dəyirmana bənzəyən çarxlarını fırladan bu kiçik gəmi şəhərdən axan çayın okeana apardığı tullantıları süzür. Tullantılar gündə bir dəfə emal edilərək yandırılmağa və ya zibilliyə göndərilir.***

"Nauka i jizn" saytı xəbər verir ki, ötən il bu robot vasitəsilə 118 min 670 plastik butulka və 2,6 milyon kötük toplanıb. Bəzi hesablamalara əsasən, hazırda okeanlarda təxminən 270 min ton müxtəlif plastik tullantı var.



# "SMART" TİPLİ SAYĞAC KODA DÜŞDÜKDƏ NƏ ETMƏLİ?



***"Azəriqaz" İstehsalat Birliyi tərəfindən abonentlərin mənzillərində quraşdırılan yeni "smart" tipli sayğacların əsas xüsusiyyəti istehlakçıların qazla təminatını öncədən ödəniş etməklə həyata keçirmək və eyni zamanda təbii qazdan təhlükəsiz istifadə olunmasını təmin etməkdir.***

Bir çox hallarda istehlakçılar təbii qazdan istifadə zamanı müvafiq təhlükəsizlik qaydalarına düzgün riayət etmir, bu zaman sayğacın klapanı bağlanır, sayğac koda düşür və avtomatik olaraq təbii qazın verilişi dayanır.

"Azəriqaz" İB bildirir ki, proqram təminatında aparılmış müvafiq işlər nəticəsində "smart" tipli qaz sayğacları koda düşdükdə abonent kartları vasitəsi ilə onları işə salmaq mümkündür. Artıq abonentlər öz kartları ilə "ALARM 3", "ALARM 5" və "FO-44" koda düşmələrini aradan qaldıra bilərlər.

Bunun üçün abonentlər göstərilən təlimatları ardıcıllıqla yerinə yetirməlidirlər:

1. "Smart" tipli sayğac koda düşdükdə ilk öncə kart koda düşmüş sayğaca daxil edilir. Bu zaman sayğacın ekranında olan informasiya avtomatik olaraq həmin abonentin kartının yaddaşına köçürülür. İki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

2. İstənilən ödəmə məntəqəsində kartın balansına minimum 1 AZN məbləğində vəsait ödənilir.

3. Ödəniş həyata keçirildikdən sonra abonentin mənzilində olan qaz cihazları təhlükəsizlik tələblərinə uyğun olaraq sızma testinin aparılması üçün bağlı vəziyyətdə saxlanılmalıdır.

4. Kart ödəniş həyata keçirmək üçün sayğaca daxil edilir və iki siqnal səsindən sonra kart sayğacdan çıxarılır.

5. Sayğacın üzərindəki göy düymə (klapan aç) 5 saniyə sıxılı saxlanılır. Bu zaman sayğac özü avtomatik olaraq 190 saniyədən geri saymağa başlayır. Göstərilən müddət bitdikdən sonra sayğac koddan çıxır və təbii qazın verilişi bərpa olunur.

Bu əməliyyat üçün heç bir xidmət haqqı tələb olunmur və sayğacın koddan çıxarılması zamanı ödənilən məbləğ abonentin balansına əlavə olunur.

# YARIZARAFAT, YARIGERÇƏK

**Ağıllı adamlar var, güclü adamlar var. İnkişaf isə ancaq və ancaq ağıllı adamların güclü olduğu və güclü adamların ağıllı olduğu yerdə olur.**

**Bu qədər oxuyandan sonra başa düşdüm ki, həyatı dərk etmədən yaşamaq daha asandır.**

**Bu il azı iki kitab çap edəcəyəm ki, birini bağlayanda, digəri dadıma çatsın.**

**Pis adamları pis adamlar, yaxşı adamları Allah qoruyur.**

**Həqiqət bir az mənə oxşayır. Müdafiəçisi həmişə az olur.**

**Ar olan yerdə var da olar.**

**Hərə bir şeyə baxır. Gələcəyə kim baxacaq?**

**Bir-birimizin sağlığını arzulamaq üçün bəlkə bir birimizə borc verək?**

**Adamın ağlına hər şey gələn yerdə cibinə çətin ki, bir şey gələ.**

**Qonaq "Allah qonağı" olduğu üçün tez getməsini arzulayırıq?**

**Başqalarına oxşamağa çalışanlar etiraf etməsələr də əslində özlərini bəyənməyənlərdir.**

**Aş bişirmələrinin mənə nə xeyri? Çoxdan Əli aşından da olmuşam, Vəli aşından da.**

**Hətta ən imkansız adamın da həmişə yaxşılıq etmək imkanı var.**

**Çox gəzən çox bilər deyə, bizi hər yerdə get-gələ salmalıdırlar?**

**Yaxşı ki, pulum yoxdur. Heç olmasa bilirəm ki, itirəcəyim bir şey yoxdur.**

**Yaxşı ki, gələcəyə sovet maşınlarında getmirik. Yoxsa yarıyolda qalarıq.**

**Bütün xəsis adamlar özlərinə qənaətcil deyirlər. Bir qənaətcil adamın özünə xəsis dediyini eşitmisiniz?**

**Allah bekar deyil ki, hər şeyi Allahın ümidinə qoyaq.**

**Maraq adamı çox yerə apara bilər, amma gətirə bilməz.**

**Görəsən ağ eləmişəm? Üzümü deyirəm e...**

**Tənbəllikdənmi, həmişə istəyirik ki, həqiqət biz tərəfdə olsun. Niyə biz həqiqətin tərəfində olmayaq?**

**Yerişimizi dəqiq nə vaxt itiririk?**

**Hətta qulağı çox yaxşı eşidən də vicdanının səsini niyə eşitməsin?**

**Suyu üfürə-üfürə içən də isti su davası edir?**

**Onu bilirəm ki, yollarımız rahat olsa, bizi heç şeytan da yoldan çıxara bilməz.**

**Yalan bəzən, həqiqət isə həmişə səni vəziyyətdən çıxarar.**

**Sərnişinlərin nəzərinə! Bir-birinizə qarşı diqqətli olun. Əlillərə, qocalara, əzilib-büzülən "kişilər"ə yer verin.**

**Hamı özünə yox, insanlığa yaraşan hərəkət etsə, nə dərd?!**

**Vəziyyəti qiymətləndirə bilməyən əziyyətdən qurtula bilməz.**

**Deyəsən ucundan tutub... bahaçılığa gedirik axı...**

**Şad xəbər olsa, xəbərçilik də pis deyil.**

**Fikir vermisiniz? Yumurta bol olanda nədənsə yunumuz da çoxalır.**

**Düzdən o yana keçmə. Sonra qayıtmaq çətin olacaq.**

**Deyirlər bu il qış çox sərt keçəcək. Deyəsən çox adamın ümidi yalnız imanını yandırmağadır.**

**Deyirlər ən yaxşı müdafiə hücumdur. Görəsən ona görə, bizi müdafiə edəsi adamların da hücumuna məruz qalırıq?**

**Dünyada ən yaxşı şey pərdədir.**

**Ən azı oturduğu budağı baltalamaması üçün çox adamın əlinə balta vermək olmaz.**

**Pul üçün min dona girirlər. Halbuki elə min don üçün nə qədər pul lazımdır.**

**Gəmiçiliyin çörəyini yeyənlər niyə sonra Gəmiçiliyə buynuz göstərirlər?**

**Ən pis cavab yaxşılığa yamanlıqla cavab verməkdir.**

**Deyirəm ancaq həqiqəti danışmağa icazə versələr, nə sakitlik olar...**

**Məgər gözün zərif olduğunu bilmirlər? Niyə yerindən duran özünü gözə soxmaq istəyir?**

**Başı çox şeydən çıxırsa, bu, o demək deyil ki, başını hara gəldi soxsun.**

**Döyüşə ucalar gedir...**

**Daşımaq çətin olduğu üçün çox adam qocalığını boynuna almır?**

**Heç səhv etmədiyini düşünən ən azı belə düşünəndə daha bir səhvə yol verir.**

**Gərək mən də eynək taxam. Yalanı düz adamın gözünün içinə deyənlər çoxalıb.**

**Hər vəd verməyi bacaran mütləq gərək deputatlığa namizədliyini verə?**

**İşdən iş çıxaranlar təkcə işsiz adamlar olsaydı, nə dərd?**

**İstəyənin bir üzü qara, istəməyənin hər iki üzü.**

**İstər qurunun oduna olsun, istər yaşın, yanmaq həmişə təhlükəlidir.**

**Bir maşın samanın altından nə qədər su yeritmək olar?**

**Ağlın hər yerə getsə də, özün hər yerə tələsmə.**

**Səhvlərin içində batanların çoxu özünü ağıl dəryası sayanlardır.**

**Ölüm həmişə olumla oynayır.**

**Yalan həqiqətin qorxusundan doğur.**

**Dilin şirin olsa, çayın məndən.**

**Rəssamlıqdan başı çıxmasa da, hər rəngdə yalan danışır.**

**Əvəz ummuram o demək deyil ki, hər yaxşılığıma pisliklə cavab verəsən.**

**Ortada bir şey olmayanda ortaq məxrəcə gəlmək çətindir.**

**Onun-bunun pulunu saymaqla uzağı saymağı yaxşı öyrənmək olar.**

***Rasif TAHİROV***

## Azərbaycan yığması güləş üzrə dünya çempionatını ikinci yerdə başa vurub





***Azərbaycan yığma komandası Beynəlxalq Hərbi İdman Şurasının (CISM) himayəsi altında Makedoniyanın paytaxtı Skopyedə keçirilən güləş üzrə hərbçilərin 31-ci dünya çempionatını ikinci yerdə başa vurub.***

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandasının qatıldığı dünya çempionatında 4 qitəni təmsil edən 35 ölkədən 300-dən çox idmançı mübarizə aparıb. Dünya çempionatının sərbəst və yunan-Roma güləşi yarışlarında iştirak edən idmançılarımız 2-si qızıl, 4-ü gümüş və 3-ü bürünc olmaqla ümumilikdə 9 medal qazanıblar. Azərbaycan yığmasına qızıl medalları Həsən Əliyev və Ağahüseyn Mustafayev qazandırıblar. Millimiz komanda hesabında 53 xal toplayaraq yarışları ikinci yerdə başa vurub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev, sərbəst güləş üzrə komandamızın rəhbəri Nazim Əlicanov, yunan-Roma güləşi üzrə komandamızın rəhbəri isə Taleh İsrafilovdur. Həmçinin dünya çempionatında Azərbaycan nümayəndə heyətinin tərkibinə beynəlxalq dərəcəli hakim Elman İsmayılov da daxil idi.

Çempionatda Rusiya Federasiyası 61 xalla birinci, Ukrayna isə 52 xalla üçüncü yerə layiq görülüb.

## FİFA dünya çempionatında iştirakçı komandaların sayını 48-ə yüksəldir



***FİFA-nın prezidenti Canni İnfantino dünya çempionatının final mərhələsinin iştirakçılarının sayının artırılması məsələsini yenidən gündəmə gətirib.***

TASS İnformasiya Agentliyi xəbər verir ki, İnfantinonun təklif edəcəyi layihəyə əsasən seçmə mərhələlərdən sonra 48 yığma mundiala vəsiqə qazanacaq. Ancaq onların heç də hamısı final mərhələsində iştirak etməyəcək. Belə ki, yüksək reytinqli 16 yığma birbaşa qruplarda iştirak hüququ əldə edəcəklər. Digər 32 komanda isə püşkatma yolu ilə öz aralarında pley-off matçları keçirəcək və qalib 16 milli mundiala yollanacaq.

Ali futbol qurumunun rəhbəri bununla bağlı gələn ilin yanvar ayında keçiriləcək iclasda qərar qəbul ediləcəyini deyib: "Futbol şənliyinə 48 komanda qatılacaq. Amma dünya çempionatı yenə 32 yığmanın iştirakı ilə keçiriləcək. Ona görə də mən Qətərdə təşkil ediləcək 2022-ci il dünya çempionatında iştirakçı komandaların sayının 40-a çatdırılması təklifi ilə çıxış etmişəm. Bu cür fikirlər müzakirə edilir və ən ideal qərar qəbul olunur. Biz 2017-ci ildə bu formatla bağlı fəaliyyətimizi tamamlamaq istəyirik. Bizim rolumuz və ideyamız futbolun bütün dünyada daha da geniş inkişaf etməsinə hədəflənib", - deyə İnfantino fikrini belə əsaslandırıb.

## "Avro-2020"nin dörd oyununa ev sahibliyi edəcək Bakının loqosu təqdim olunub




***Sentyabrın 30-da Bakı Olimpiya Stadionunda futbol üzrə 2020-ci ildə təşkil olunacaq Avropa çempionatına ev sahibliyi edəcək 13 şəhərdən biri olan Bakının bu yarışla əlaqədar hazırlanan loqosunun təqdimat mərasimi keçirilib.***

Tədbirdə UEFA-nın prezidenti Aleksander Çeferinin rəhbərlik etdiyi nümayəndə heyəti, "Avro-2020"nin Bakıda keçiriləcək oyunları ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Mikayıl Cabbarov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, AFFA-nın rəhbərliyi və digər şəxslər iştirak ediblər.

Dünya futbolunun əfsanələrindən olan, "Avro-1988"in qalibi, hollandiyalı futbol ulduzu Ruud Qullit xüsusi qonaq kimi tədbirə qatılıb.

Mərasimdə Təşkilat Komitəsinin sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov və UEFA-nın prezidenti Aleksander Çeferin çıxış ediblər.

Sonra indiyədək keçirilmiş Avropa çempionatlarının maraqlı məqamlarını əks etdirən videoçarx nümayiş olunub.

Ruud Qullitin çıxışından sonra mərasim iştirakçıları "Avro-2020"nin oyunlarının ev sahibliyi ilə əlaqədar Bakının namizədliyi irəli sürülərkən AFFA-nın sifarişi ilə hazırlanmış videoçarxı izləyiblər.

Sonda akrobatların maraqlı çıxışlarının müşayiəti ilə loqo təqdim edilib.

Qeyd edək ki, futbol üzrə ilk Avropa çempionatının keçirilməsinin 60 illik yubileyi ilə əlaqədar "Avro-2020"yə 13 şəhər ev sahibliyi edəcək. Bunlar Bakı (Azərbaycan), Sankt-Peterburq (Rusiya), Buxarest (Rumıniya), Budapeşt (Macarıstan), Münxen (Almaniya), Brüssel (Belçika), Amsterdam (Hollandiya), Kopenhagen (Danimarka), Roma (İtaliya), Bilbao (İspaniya), Dublin (İrlandiya), London (İngiltərə) və Qlazqo (Şotlandiya) şəhərləridir.

Bakıda çempionatın dörd - qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyunu keçiriləcək.

Sentyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev çempionatının oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılmasına dair Sərəncam imzalayıb.

## Parter ləğv edilib

***Bir müddət əvvəl Dünya Güləş Birliyi yunan-Roma güləşi qaydalarında bəzi dəyişikliklər edib. Bu dəyişiklərdən biri yeniyetmə və gənclər arasında keçirilən yarışlarda parter qaydasının ləğv olunması idi. Böyüklər yaş qrupunda isə bu dəyişikliyə Rio Olimpiadasından sonra yenidən baxılması qərarlaşdırılmışdı.***

Dünya Güləş Birliyi artıq bu dəyişikliyi təsdiqləyib və ötən il yarım ərzində yeniyetmə və gənclər yaş qrupunda tətbiq edilən bu qayda artıq böyüklər arasında keçirilən yarışlarda da tətbiq ediləcək. Yəni artıq passiv güləşməyə görə parter tətbiq edilməsi qaydası ləğv edilib. Belə ki, passiv güləşməyə görə ilk dəfə güləşçiyə şifahi xəbərdarlıq ediləcək və protokolda qeyd ediləcək. Eyni güləşçi yenə də passivlik nümayiş etdirərsə ona rəsmi xəbərdarlıq veriləcək. Güləşçiyə üçüncü dəfə passivliyə görə xəbərdarlıq edilərsə o zaman ikinci rəsmi xəbərdarlıq veriləcək və rəqibin hesabına 1 xal əlavə ediləcək. Bundan sonra baş verəcək hər ikinci xəbərdarlıq rəqibə 1 texniki xal verilərək qiymətləndiriləcək.

Bütün bu hallarda - passivliyə görə edilən xəbərdarlıq və rəqibə xal verilməsi üçün görüş dayandırılmayacaq.




## Yeniyetmə və gənclər arasında velosiped idmanı üzrə Azərbaycan birinciliyi





***Oğuzda yeniyetmə və gənclər arasında çoxgünlük ötüşmələr üzrə Azərbaycan birinciliyi keçirilib.***

Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) və Gənclər və İdman Nazirliyi (GİN) ilə birgə təşkil edilən açıq xarakterli yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 100-ə yaxın idmançısı, həmçinin Gürcüstandan gəlmiş 10 velosipedçi mübarizə aparıb.

Üç gün davam edən yarışın sonuncu günündə 2 yaş kateqoriyasında qaliblər müəyyənləşib. On yeddi yaşadək velosipedçilər arasında 43 kilometrlik sonuncu mərhələni 1 saat, 16 dəqiqə, 13 saniyəyə başa vuran Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin üzvü İvan Orlov bununla da ümumi təsnifatda hamını qabaqlayıb və Azərbaycan çempionu adına sahib olub. Onun komanda yoldaşları Qadir Mustafayev və Əli Qurbanov müvafiq olaraq 2-3-cü yerləri tutublar.

Gənclər arasında "Neftçi" İdman Klubu İctimai Birliyinin velosipedçisi Telman Vəliyev 90 kilometrlik marşrutu 2 saat, 28 dəqiqə, 58 saniyəyə başa vurub. Bu isə ona 3 mərhələnin yekununa əsasən fəxri kürsünün ən yüksək pilləsinə qalxmağa imkan verib. Sonrakı 2 yerdə Gürcüstan velosipedçiləri Vano Kvahazde və Tamati Tsereteli qərarlaşıblar.

Qaliblər AzVİF VƏ GİN tərəfindən medal, diplom və pul mükafatı ilə təltif ediliblər.




## Vüqar Həşimov Şahmat Akademiyasının təntənəli açılış mərasimi keçirilib





***Oktyabrın 1-də Vüqar Həşimov Şahmat Akademiyasının təntənəli açılış mərasimi keçirilib.***

Tədbirdə əvvəlcə görkəmli şahmatçının həyatından bəhs edən videoçarx nümayiş olunub.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxış edərək mərhum şahmatçının qazandığı uğurlar barədə məlumat verib, akademiyanın fəaliyyətə başlamasının önəmini yüksək qiymətləndirib.

V.Həşimovun komanda yoldaşları Qədir Hüseynov və Zeynəb Məmmədyarova mərhum şahmatçı barədə xatirələrini bölüşüb, onun sadiq dost, güclü şahmatçı olduğunu diqqətə çatdırıblar.

Şahmatçının atası Qasım Həşimov ölkəmizdə idmanın bu növünün inkişafına dövlət qayğısını yüksək qiymətləndirib, Vüqarın xatirəsinə göstərilən ehtirama görə minnətdarlığını bildirib. O, Vüqarın xatirəsinin yaddaşlarda qalması üçün bundan sonra da müxtəlif layihələrin həyata keçiriləcəyini bildirib.

Sonda V.Həşimovun yaradıcılığından bəhs edən film nümayiş olunub.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2825